# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "15 İyun sadəcə bir tarix deyil, bir millətin qurtuluş günüdür"




5

SƏS

№ 102 (7270)

14 iyun 2025-ci il.
Qiyməti 60 qəpik

# ŞUŞA Bəyannaməsi: Qurtuluşun və Böyük Zəfərin təntənəsi



2

# ABŞ-da vətəndaş müharibəsi bərpa olunur



12

## Müstəqil həyata çağırış – "Son zəng"




4

## Səhv düşəndə yerimiz...



14

## Zorakılığın onlayn yolu: ehtiyatlı olun!



15

## Milli Məclis plenar iclas keçirib, 12 məsələ müzakirə edilib



3

## "Şagirdlərə külli miqdarda ev tapşırığı verilir"



10

# ŞUŞA Bəyannaməsi: Qurtuluşun və Böyük Zəfərin təntənəsi



***Bu gündən dünənə nəzər saldıqda aydın görünür ki, 1993-cü ilin 15 iyununda Ümummilli Lider ali hakimiyyətə qayıtmaqla Azərbaycan xalqını qarşılaşdığı bəlalardan qurtardı. Böyük Qayıdış böyük Qurtuluşun başlanğıcı oldu. Bu Qayıdış ən birinci yenicə əldə etdiyimiz müstəqilliyin taleyini dəyişdi. Bərpa etdiyimiz müstəqillik 1918-ci ildə qazandığımız müstəqillikdən fərqli taleyə malik oldu: müstəqilliyin məhvi üçün 1918-ci ildə hazırlanan eynisüjetli ssenarinin qarşısı Ulu Öndər tərəfindən alındı.***

Ölkəni bürümüş xaos, anarxiya və qarşıdurmaya son qoyuldu. Hansı ki, Ulu Öndər bunu artıq Naxçıvanda yaşadığı və fəaliyyət göstərdiyi illərdən başlamışdı. Beləliklə, 15 İyun– Milli Qurtuluş Günü Azərbaycan təqviminə böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gün kimi yazıldı. Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Heydər Əliyev günü kimi yazıldı.

1990-cı illərdə ölkədəki özbaşınalığın, hakimiyyət uğrunda mübarizələrin, öz mövqeyini xalqdan, onun tarixindən, ata-baba yurdundan üstün tutanların səriştəsizliyi nəticəsində işğal olunan torpaqlarımızın bir gün azad olunması məsələsi də Qurtuluş Günündən başlandı. Yəni belə bir nəticəyə gəlmək olur ki, böyük Heydər Əliyev hakimiyyətə gəlməsəydi, bugünkü Azərbaycan da ola bilməzdi, əldə etdiyimiz Zəfər də.

### 15 İyunda imzalanan Şuşa Bəyannaməsi

Şuşa 2020-ci ilin 44 günlük İkinci Vətən müharibəsinin sonuncu günü-noyabrın 8-də azad edildi. Qarabağın tacı olan bu yurdu azad etmək onun coğrafi mövqeyinə görə olduqca çətin idi. Necə ki, illər əvvəl Şuşa işğal olunanda bir-birimizə sual verirdik ki, necə oldu ki, Şuşa işğal olundu. Axı bu, mümkün deyildi. Yəni nankor ermənilər minlərlə metr yüksəklikdə yerləşən, sərt qayalarla əhatə olunan bu şəhəri necə asanlıqla əldə edə bilmişdilər. Təbii ki, sonralar bu suala cavab tapa bildik. Anladıq ki, Şuşa satılan yurd yerlərimizdən biri, müdafiəsinə ov silahı ilə çıxmış soydaşlarımızın səsinə səs verməyənlərin güdazına gedən torpağımız olmuşdu.

Elə coğrafi mövqeyinə görə də çətinliklə düşməndən geri alındı. Bu barədə dövlətimizin başçısı deyir: Şuşa şəhərini azad etmək böyük qəhrəmanlıq tələb edirdi. Şuşaya gələn hər bir insan bu sıldırım qayalara baxarkən görür ki, bu şəhəri, alınmaz qala sayılan şəhəri götürmək, azad etmək böyük qəhrəmanlıq, peşəkarlıq, şücaət, fədakarlıq tələb edir. Qəhrəman Azərbaycan əsgərləri qan tökərək, şəhid olaraq, sıldırım qayalara dırmaşaraq, demək olar ki, yüngül silahlarla, əliyalın Şuşanı düşmənin əlindən aldı və Azərbaycan bayrağını ucaltdı.

Bu möhtəşəm bəyannamənin məhz 15 iyun tarixdə imzalanması təsadüfi hadisə deyildi. Hələ Naxçıvanda fəaliyyət göstərdiyi üç il ərzində torpaqların işğal olunmasına ürək yanğısı ilə yanaşan, bütün çıxışlarında Qarabağın bir gün düşməndən geri alınacağını bildirən Ulu Öndərin bu, ən böyük arzusu idi. Hakimiyyətdə olduğu dövrdə hərtərəfli işlər görsə də, Azərbaycanın haqq səsini dünyaya təqdim etsə də, ömür torpaqlarımızın azad olmasını görməyi Ona nəsib etmədi. Bu barədə 2022-ci ildə-Ümummilli Liderin doğum günündə Şuşada olan və xalqa müraciət edən dövlətimizin başçısı İlham Əliyev deyirdi: Heydər Əliyev Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərmişdir. Xalqımız üçün ən çətin anlarda xalqın yanında olmuşdur, Azərbaycan xalqını böyük bəlalardan, faciələrdən xilas etmişdir. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin, Azərbaycan dövlətinin banisidir, onun qurucusudur. O, öz həyatını xalqa həsr etmişdir və onun ən böyük arzusu Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək idi. O, öz fəaliyyəti ilə dövlət quruculuğu, ordu quruculuğu sahələrində gördüyü işlər nəticəsində dövlətin əsasları yaradıldı və ölkəmiz inkişaf yoluna qədəm qoydu.

Əfsuslar olsun ki, atam bu günü görə bilmədi. Onun kimi yüz minlərlə azərbaycanlı bu günü görmədən həyatdan getdilər. Biz - onların davamçıları onların işini tamamladıq, atamın vəsiyyəti yerinə yetirildi. Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik.

15 İyunun xalqın xilası üçün başlanğıc olduğunun sonrakı illərdə hər bir vətəndaş şahidi oldu. Heydər Əliyev siyasi xəttinin uğurla və böyük məsuliyyətlə davam etdirilməsi ölkəmizin inkişafı, milli ordumuzun təkmilləşməsi ilə yanaşı, torpaqlarımızın da azad edilməsi ilə nəticələndi.

Şuşa Bəyannaməsinin imzalanması günü də Qurtuluşun təntənəsi olan və dövlətçilik ənənələrini özündə ehtiva edən 15 iyun gününə müəyyən edilmişdi. Dövlətimizin başçısının bəyanatla çıxışında dediyi kimi: İmzalanmış Bəyannamə tarixə əsaslanır. Bəyannamədə xalqlarımızın böyük liderləri, öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapıb. XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir”. XX əsrin sonlarında Heydər Əliyev demişdir: “Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir”.

### Qars müqaviləsindən 100 il sonra Azərbaycan-Türkiyə qardaşlığının dünyaya mesajı

2021-ci il 15 iyun tarixində Şuşa şəhərində “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin imzalanması iki dövlət arasında qədim olan dostluq və qardaşlıq münasibətlərinin yeni dövrdə bütün dünyaya mesajı oldu. Dövlətimizin başçısının Şuşada Türkiyə lideri ilə bəyannamə imzalayarkən Qars müqaviləsini xatırlaması bir təsadüf deyildi. Bu, Qars müqaviləsinin imzalanmasından 100 il sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında birgə bəyannamənin imzalanmasının rəmzi mənasını əks etdirirdi. Və iki dövlət arasında münasibətlərin əsrlərə söykəndiyini, eyni zamanda 1921-ci il tarixli Qars müqaviləsinə əsasən, Naxçıvanın təhlükəsizliyinin təminatçısı olan Türkiyənin 100 ildən sonra imzalanan Şuşa Bəyannaməsi ilə bütövlükdə Azərbaycanın, ümumilikdə isə regionun təhlükəsizliyinin zəmanətçisi olduğunu özündə ehtiva edirdi. Ona görə də Şuşa Bəyannaməsi nəinki müstəqillik illərinin, ümumilikdə Azərbaycan diplomatiya tarixinin ən mühüm sənədlərindən biri hesab olunur.

İki dövlətin ümumi maraqlarının qorunmasına, yeni imkanların birləşdirilməsinə, eləcə də ümumi maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən Şuşa bəyannaməsini 2020-ci ildə Azərbaycan torpaqlarının 270 ildən sonra ilk dəfə azad olunmasına başlanması kimi, qədim münasibətlərə yeni mərhələdə başlanmasının da uğurlu nəticəsi adlandırmaq olar. Şuşa bəyannaməsi iki dövlətin gücünü dünyaya bir mesaj kimi təqdim etdi. Bu güc tək siyasi-diplomatik, hərbi strateji məsələlərdə deyildi. Eyni zamanda iki dövlət arasındakı qədim milli-mənəvi dəyərlərə söykənən türkçülük, birlik, həmrəylik prinsipinin yaşadılmasında, iki dövləti bir-birinə bağlayan amillərdə idi.

### İki dövlət arasında hərtərəfli müttəfiqlik münasibətləri

Bu barədə Prezident İlham Əliyev bəyanatla çıxışında deyirdi: Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlığımız, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Enerji təhlükəsizliyinin, Cənub Qaz Dəhlizinin önəmi Türkiyə, Azərbaycan və Avropa üçün göstərilir və hər bir məsələ çox böyük önəm daşıyır. Mən onların arasında iki məsələni xüsusilə qeyd etmək istərdim. Birincisi, müdafiə sahəsində əməkdaşlıq, iş birliyi məsələsi. Müdafiə sənayesi sahəsində və qarşılıqlı hərbi yardım məsələləri bu Bəyannamədə öz əksini tapır. Bu, tarixi nailiyyətdir. Biz bir daha göstəririk ki, bundan sonra da hər zaman bir yerdə olacağıq. Bundan sonra da bir-birimizin təhlükəsizliyini təmin edəcəyik, necə ki, bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq.

Bəli, müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələlərinin bəyannamədə əks olunması da tarixi nailiyyətdir. Qardaş ölkələr bundan sonra da bir-birinin təhlükəsizliyini təmin edəcək. Müdafiə sənayesi sahəsində əlaqələrin inkişafı ölkələrin hərbi qüdrətini artıracaq. İkinci Qarabağ müharibəsində pilotsuz uçuş aparatlarının böyük rol oynadığını nəzərə alsaq, Azərbaycan bu sahə üzrə istehsal mərkəzi kimi inkişaf edəcəkdir. İki qardaş ölkə həm də iki dövlətin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylər göstərir. Müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsinə yönələn bu tədbirlər iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasına, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasına xidmət edir.

Şuşa bəyannaməsi iki dövlətin bir-birinin təhlükəsizliyinə təminat verməklə, eyni zamanda regionun təhlükəsizliyinə təminat yaradır. Bu, həm də 2010-cu il avqustun 16-da imzalanmış “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə”nin müddəalarını da bir daha gündəmə gətirir.

Hər iki ölkənin iqtisadi qüdrətini artıran Bəyannamə artıq işğaldan azad edilmiş ərazilərə yeni sərmayə qoyuluşu prosesini stimullaşdırıb. Vətən müharibəsində olduğu kimi, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması prosesində də Azərbaycan ilə Türkiyə arasında sıx əməkdaşlıq mövcuddur. Regionun artan investisiya potensialı isə gələcəksə yeni iqtisadi münasibətlərin formalaşmasına səbəb olacaqdır.

Şuşa bəyannaməsində yer alan müddəalardan biri də böyük geosiyasi və iqtisadi əhəmiyyətə malik olan Zəngəzur dəhlizinin bərpasıdır. Bu möhtəşəm layihənin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq iqtisadi dəhliz açılacaqdır. Bu dəhliz həmçinin Türkiyə ilə Azərbaycanı dəmiryolu və avtomobil yolu ilə birləşdirəcək. Zəngəzur dəhlizinin bərpa edilməsi, eyni zamanda 30 ildən artıq bir zamanda blokada şəraitində yaşayan Naxçıvana quru yolun bərpa edilməsi, Naxçıvanın blokadadan çıxması ilə nəticələnəcək. Bu sahədə mütərəqqi addımlar atılıb. Yaxın gələcəkdə Zəngəzur dəhlizinin böyük geosiyasi əhəmiyyətə malik nəqliyyat vasitəsi olmasını görəcəyik. Ümumiyyətlə, hər bəndi Azərbaycan-Türkiyə dostluq və qardaşlığını daha da artıran Şuşa Bəyannaməsi Azərbaycanın və Türkiyənin milli gücünün artmasını, dünyada söz və nüfuz sahibi kimi mövqeyinin daha da möhkəmlənməsini şərtləndirir.

### Şuşa Bəyannaməsi-yeni dövrün nizamı

Prezident İlham Əliyev 15 iyun 2022-ci il tarixində Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə Şuşa şəhərində “Azərbaycan – Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir” mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına ünvanlandığı müraciətdə deyirdi: Qürurverici haldır ki, Azərbaycan və Türkiyə dünya miqyasında mənəvi-siyasi cəhətdən bir-birinə ən yaxın ölkələrdir. Bizi birləşdirən bir çox amil vardır: tarix, mədəniyyət, etnik köklər, dil, din, milli dəyərlər, milli maraqlar və xalqlarımızın qardaşlığı. Bütün bunlar bizim sarsılmaz birliyimizi təmin edir. Bu gün Azərbaycan və Türkiyə ortaq siyasi iradə və birgə fəaliyyətlə gələcək hədəflərə çatmaq əzmində olan nadir müttəfiqlik nümunəsidir.

Məmnuniyyət hissi ilə qeyd etmək istərdim ki, iki ölkə arasındakı möhkəm həmrəylik Türk dünyasında əlaqələrin inkişafı baxımından da önəmlidir. Bu, yeni dünya nizamının yarandığı şəraitdə türk dövlətlərinin dövrün çağırışlarına cavab verməklə millistrateji hədəflərə çatması üçün zəmin və fürsət yaradır, türkdilli ölkələrin qarşısında yeni perspektivlər açır. Qurtuluşun və böyük Zəfərin təntənəsi olan, Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərində dörd il əvvəl imzalanan tarixi Şuşa Bəyannaməsi Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi işinə, eləcə də dövlətimizin başçısının vurğuladığı kimi, yeni dünya düzəninə mühüm töhfədir. Xalqımız zamanı çatanda bu töhfələrin də sahibi olacaq.

***Mətanət Məmmədova***



# Milli Məclis plenar iclas keçirib, 12 məsələ müzakirə edilib

***İyunun 13-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib. Milli Məclisin sədri iclasın Azərbaycan tarixinin gedişini dəyişmiş bir hadisənin ildönümü ərəfəsində keçirildiyini deyib. O bildirib ki, 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin ali hakimiyyətə qayıtması Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etdi. Ulu Öndərin siyasi iradəsi, qətiyyəti, zamanın çağırışlarına yaradıcı münasibət bildirmək və düzgün qərarlar qəbul etmək qabiliyyəti sayəsində xalqımız müstəqil dövlətini qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı reallaşdıra bildi. Ümummilli Liderimizin məharətlə və əzmlə xilaskarlıq missiyasını həyata keçirməsi, hüquqi, demokratik və dünyəvi dövlətin möhkəm təməlini yaratması Azərbaycanın tarixinə milli qurtuluş və quruculuq dövrü kimi əbədi həkk olunub.***

S.Qafarova Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyətinin iyunun 11-12-də Qazaxıstanın paytaxtı Astanaya işgüzar səfəri barədə məlumat verib.

Sonra parlamentin sədri plenar iclasın gündəliyinə 12 məsələnin daxil edildiyini bildirib. O, birinci məsələnin "Türk Dövlətləri Təşkilatının mülki müdafiə mexanizminin təsis edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi olduğunu deyib. O qeyd edib ki, qanun layihəsi beynəlxalq sənədlə bağlı olduğuna görə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə uyğun olaraq bir oxunuşda qəbul ediləcək.

İclasda Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev bu məsələni təqdim edib. O, qanun layihəsinin ölkə Prezidentinin imzası ilə Milli Məclisə daxil olduğunu bildirib. Qeyd edib ki, "Türk Dövlətləri Təşkilatının mülki müdafiə mexanizminin təsis edilməsi haqqında Saziş" Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan Hökumətlərinin təmsilçiləri tərəfindən 2024-cü il noyabrın 6-da Bişkek şəhərində imzalanıb.

Komitə sədri diqqətə çatdırıb ki, Türk Dövlətləri Təşkilatının Mülki Müdafiə Mexanizminin (TDTMMM) məqsədi Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərin, eləcə də digər dövlətlərin ərazilərində baş verə biləcək fəlakətlər və fövqəladə hallar zamanı fövqəladə ehtiyacları dəstəkləmək üçün fəlakətlərə cavab tədbirləri üzrə ortaq potensialın yaradılmasıdır. Dəstək fəlakət və ya fövqəladə vəziyyət zamanı zərər çəkmiş dövlətin müraciəti əsasında təmin edilir və TDTMMM-in dəstək fəaliyyətlərində iştirak könüllülük əsasında həyata keçirilir. TDTMMM-in əsas funksiyalarına fəlakət və fövqəladə hallar zamanı həyat və əmlakın xilas edilməsi, tibbi yardım, monitorinq və təhlil, sığınacaq, humanitar yardım və sair kimi tədbirlər aiddir. Qanun layihəsi səsə qoyularaq qəbul edilib. Sahibə Qafarova növbəti 4 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu söyləyib. İclasda Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verib. O, sənədin ikinci oxunuşda plenar iclasda qəbul edildikdən sonra əlavə heç bir təklifin daxil olmadığını söyləyib və sənədin dəstəklənməsini xahiş edib.

Daha sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Pasportlar haqqında" və "Dövlət qulluğu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, layihədə hər hansı dəyişikliyin olmadığını bildirib və onun olduğu kimi səsə qoyulmasını xahiş edib.

Sənəddə "Pasportlar haqqında" Qanuna təklif olunan düzəlişə əsasən, Prezident Administrasiyasında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərinin müavinləri diplomatik pasportu əldə edə biləcək subyektlər dairəsinə daxil edilir. "Dövlət qulluğu haqqında" Qanunda isə inzibati və yardımçı vəzifələr təsnifatına yeni vəzifənin - Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi vəzifəsinin əlavə edilməsi təklif olunur.

Qanun layihələri üçüncü oxunuşda qəbul edilib. S.Qafarova gündəliyin digər 4 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib. O qeyd edib ki, növbəti məsələ "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsidir (ikinci oxunuş). Sədr bu məsələ ilə əlaqədar Hökumət üzvlərinin, Hesablama Palatası rəhbərliyinin və digər vəzifəli şəxslərin iclasda iştirak etdiyini söyləyib.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məsələ barədə məlumat verərək, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin və illik hesabatın birinci oxunuşda ətraflı müzakirə edildiyini bildirib. Komitə sədri dövlət büdcəsinin icrasının büdcə prosesinin vacib mərhələlərindən biri olduğunu deyib. Qeyd edib ki, büdcənin icrası üzrə hesabatlılıq büdcə prosesinin və büdcə nəzarətinin ayrılmaz tərkib hissəsidir. O, büdcə prosesinin və onun təkmilləşdirilməsinin davamlı xarakter daşıdığını, Maliyyə Nazirliyində büdcə sisteminin və fiskal siyasətin müxtəlif istiqamətlərini əhatə edən işçi qruplarının yaradıldığını söyləyib.

İclasda iştirak edən maliyyə naziri Sahil Babayev bildirib ki, dövlət büdcəsi ölkənin strateji inkişaf istiqamətlərini, sosial öhdəliklərini, vətəndaş rifahına yönəlmiş siyasəti özündə əks etdirən əsas sənəddir. Büdcənin icrası isə bu öhdəliklərin həyata keçirilməsinin göstəricisi, Hökumətin sosial-iqtisadi fəaliyyətinin məntiqi yekunudur.

O, Prezident İlham Əliyevin rəhbərliyi ilə hesabat ilində büdcənin icrası ilə bağlı zəruri tədbirlər görüldüyünü, makroiqtisadi göstəricilərin müsbət tendensiya üzrə inkişaf etdiyini, sosial proqramların icrasının təmin olunduğunu, iqtisadi inkişaf, dövlətin təhlükəsizliyinin və müdafiə qabiliyyətinin artırılması üçün tələb olunan həcmdə maliyyə vəsaitinin səfərbər edildiyini vurğulayıb. Bununla yanaşı, ötən il ərzində Böyük Qayıdış Proqramına uyğun olaraq quruculuq işlərinin sürətləndirilməsinin və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesinin geniş vüsət aldığını söyləyib. Milli Məclisin sədri növbəti məsələnin "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu bildirib. O qeyd edib ki, bu məsələ ilə əlaqədar ədliyyə nazirinin müavini Toğrul Hüseynov, Ədliyyə Nazirliyinin Qanunvericilik Baş idarəsinin rəisi Elçin Nəsibov, İcra xidmətinin rəis müavini Yaqub Qurbanov iclasda iştirak edirlər.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bu qanun layihəsini təqdim edib. O, birinci oxunuş zamanı məsələ barədə ətraflı məlumat verildiyini söyləyib. Komitə sədri məhkəmə qərarlarının icrası sahəsində mövcud vəziyyət barədə danışaraq, bu qərarların təmin edilməsi üçün təsirli tədbirlərin görüldüyünü deyib, bu baxımdan təqdim edilən qanun layihəsinin əhəmiyyətindən söhbət açıb.

Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Vergi Məcəlləsində, "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumatı nəzərə çatdırıb.

İclasda Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "İstilik təchizatı haqqında" qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, layihənin birinci oxunuşda müzakirəsi zamanı deputatlar tərəfindən dəstəkləndiyini qeyd edərək, bununla yanaşı, bəzi sual və təkliflərin səsləndirildiyini söyləyib. Qanun layihələri səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

S.Qafarova gündəliyin son üç məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu bildirib və deputatlardan çıxışlar zamanı birinci oxunuşun tələblərini nəzərə almalarını xahiş edib. O, növbəti iki məsələnin Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-biri ilə bağlı olduğunu diqqətə çatdırıb. Ona görə də layihələrin təqdimatları və müzakirəsi birlikdə aparılıb.

Gündəliyin 10-cu məsələsi olan "Qaz təchizatı haqqında" qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov təqdim edib. O bildirib ki, sənədin qəbulu qaz sektorunda islahatların dərinləşməsində, sahə üzrə münasibətləri tənzimləyən sənədlərin zəruri hüquqi bazasının yaradılmasında mühüm bir mərhələ açacaq. Layihə ölkəmizin qaz təchizatı sistemində idarəetmənin beynəlxalq standartlara uyğunlaşdırılması və bu sahədə dayanıqlı, sabit, şəffaf və rəqabətli hüquqi mühitin formalaşdırılması məqsədilə hazırlanıb. Vurğulanıb ki, qaz təchizatının dayanıqlılığı, təhlükəsizliyi, etibarlılığı, səmərəliliyi, bu sahədə şəffaf idarəetmə və tənzimləmə, bərabər və ayrı-seçkiliyə yol verməyən xidmət imkanları qanun layihəsində dövlət siyasətinin əsas prinsipləri kimi təsbit olunub. İstehlakçılarla təchizat subyektləri arasında balanslı və ədalətli münasibətlərin qurulması da sənədin əsas istiqamətlərindəndir. Diqqətə çatdırılıb ki, layihədə qazın hasilatı, nəqli, paylanması və satışı kimi funksiyaların hüquqi ayrılığı təmin olunur, tariflərin hesablanması üçün şəffaf mexanizmlər təklif olunur.

Gündəliyin 11-ci məsələsi olan "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov nəzərə çatdırıb.

Sadiq Qurbanov gündəliyin sonuncu məsələsi olan "Elektroenergetika haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verərkən layihəni elektroenergetika sektorunda aparılan genişmiqyaslı islahatların məntiqi davamı kimi dəyərləndirib. Bildirilib ki, bu dəyişikliklərin mahiyyəti yalnız texniki xarakter daşımır. Əslində, bu təşəbbüs ölkədə enerji təchizatının səmərəliliyinin artırılması, xidmət keyfiyyətinin yüksəldilməsi və enerji sisteminin iqtisadi dayanıqlığının təmin olunması istiqamətində atılan mühüm addımlardandır. Komitə sədri bildirib ki, qanun layihəsinin əsas predmeti "sabit tarif" anlayışının qanuna daxil edilməsidir. O, bu anlayışı müasir və inkişaf etmiş iqtisadi modellərdə istifadə olunan, iqtisadi əsaslara söykənən və enerji xidmətlərinin davamlılığını təmin edən element kimi xarakterizə edib. Yəni, bu, enerji təchizatçılarının daimi və dəyişməyən xərclərinin qarşılanması üçün nəzərdə tutulan məbləğdir. Qeyd olunub ki, bu məbləğ faktiki olaraq hazırda istehlakçılar tərəfindən ödənilir, sadəcə tarif strukturunda ayrıca göstərilmir. Ona görə də sabit tarifin qanunvericiliyə əlavə edilməsinin heç bir halda yeni ödəniş və ya əlavə maliyyə yükü yaratmadığı diqqətə çatdırılıb. Qanun layihələri birinci oxunuşda qəbul edilib. Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatıb.

# Medianın İnkişafı Agentliyi: Azərbaycan hərbi təyyarələrinin İranla sərhəddə uçuşlar həyata keçirdiklərinə dair məlumatlar reallığı əks etdirmir




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi guya Azərbaycan hərbi təyyarələrinin İranla sərhəddə uçuşlar həyata keçirdiklərinə dair həqiqətə uyğun olmayan məlumatlarla bağlı açıqlama yayıb. Açıqlamada deyilir: "İsrail-İran münasibətlərinin gərginləşməsi fonunda sosial şəbəkələrin xarici seqmentində guya Azərbaycan hərbi təyyarələrinin İranla sərhəddə uçuşlar etdiklərinə dair həqiqətə uyğun olmayan məlumatlar yayılmaqdadır.

Bildirmək istərdik ki, informasiya manipulyasiyası məqsədilə hazırlanmış bu tip "xəbərlər" saxtadır və qətiyyən reallığı əks etdirmir. Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların vüsət aldığı bir şəraitdə sayıq olmağa çağırırıq".

# Müstəqil həyata çağırış – “Son zəng”

**2024-2025-ci tədris ilində ümumi orta təhsil səviyyəsi üzrə 157 802 nəfər, tam orta təhsil səviyyəsi üzrə isə 116 222 nəfər şagird məzun adını qazanır**

***Bu gün müstəqil və suveren Azərbaycanın bütün ümumtəhsil müəssisələrdə, onbirillik məktəb həyatının ”Son zəng”i çalındı. On bir il elmi biliklərə yiyələnən məktəblilər məzun adını qazandılar. Yaddaşlarda qalacaq bu günün zəngi uşaqlıq və yeniyetməlik dövrünün xatirəsi tək əbədiləşəcəkdir. 2024-2025-ci tədris ilində ümumi orta təhsil səviyyəsi üzrə 157 802 nəfər, tam orta təhsil səviyyəsi üzrə isə 116 222 nəfər şagird məzun adını qazanır.***

2024-2025-ci tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinin IX siniflərini 46 406, XI siniflərini 33 517, XII siniflərini isə (əyani-qiyabi tam orta məktəb və qiyabi sinifləri) 138 nəfər bitirir. Paytaxtdakı ümumi təhsil müəssisələri üzrə 38 206 nəfər I sinfi başa vurur. Qeyd edək ki, BŞTİ-nin tabeliyində 344 ümumi təhsil müəssisəsi fəaliyyət göstərir. On bir il parta arxasında oturub müəllimlərini həvəslə dinləyən, elmi biliklərə yiyələnən məktəblilər məzun adını qazandılar. Yaddaşlarda qalacaq bu günün zəngi uşaqlıq və yeniyetməlik dövrünün xatirəsi tək əbədiləşəcəkdir. Artıq bu gündən gənclər müstəqil Azərbaycanın müstəqil vətəndaşı kimi həyata qədəm qoyurlar.

Bildiyimiz kimi, neçə ildir ki, ölkəmizdə ümumtəhsil məktəblərində hər il iyunun 14-də son zəng qeyd edilir. SSRİ dövründə və dövlət müstəqilliyinin bərpasından sonra 2005-ci ilə qədər mayın 25-i, 2005-ci ildən 2016-cı ilə qədər isə mayın 31-də qeyd olunmuşdur.

## TƏHSİL SİSTEMİNDƏ UĞURLU İSLAHATLAR

Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər gənclərimizin savadlı, rəqabətəqabil, həm də əsl vətəndaş kimi yetişməsində əvəzsiz rol oynayır. Müasir dövrdə ölkələrin inkişaf konsepsiyasını təhsil müəyyənləşdirir. Bu baxımdan, müasir təhsil sisteminin yeni çağırışlara cavab verməsi məqsədi ilə təhsilin normativ-hüquqi bazasının formalaşdırılması, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan sərəncamlar əsasında geniş tədbirlər həyata keçirilib. Ölkəmizdə son illərdə bir sıra dövlət proqramları uğurla icra olunub, təhsilin məzmunu yenilənib, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənib. Təkcə ”2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində gənclərin dünyanın aparıcı ali təhsil müəssisələrində ölkəmiz üçün prioritet hesab olunan ixtisaslar üzrə təhsil alıblar. Təhsillərini yüksək akademik göstəricilərlə tamamlamış məzunların 60 faizi özəl, 40 faizi isə dövlət sektorunda fəaliyyət göstərir. Dövlət büdcəsindən təhsilə ayrılan xərclərin ildən-ilə artırılması da hökumətin bu sahənin keyfiyyətcə yenilənməsi üçün ardıcıl və sistemli fəaliyyət göstərdiyini təsdiqləyir. Ayrılmış vəsaitlər ”Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı”na və ”2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya”ya uyğun olaraq, təhsil sisteminin inkişafına yönəldilmiş dövlət proqramlarının və layihələrin həyata keçirilməsinə geniş maliyyə təminatı yaratmışdır. Təhsil sistemində islahatlar nəticəsində 15 yaşdan yuxarı əhali arasında savadlılıq səviyyəsi, ibtidai təhsilə nailolma, ibtidai təhsili başavurma səviyyəsi demək olar ki, yüz faizə çatdırılıb.

## SƏMƏRƏLİ FƏALİYYƏT ÜÇÜN ƏLVERİŞLİ ŞƏRAİT

Bu gün Azərbaycanın daxili imkanları genişləndikcə, təhsil ocaqlarının yenidən qurulması, təmiri və inşası istiqamətində də davamlı olaraq işlər görülür. Azərbaycanın təhsil sisteminin normativ-hüquqi bazasının yaradılması, təhsilin məzmununun yeniləşdirilməsi və təkmilləşdirilməsi, təhsilin idarə olunmasının demokratikləşdirilməsi, təhsil sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində çox böyük işlər görülüb. Məhz bunun nəticəsidir ki, bu gün biz təhsilin keyfiyyətinin inkişaf etmiş ölkələrin səviyyəsinə yüksəldilməsi ilə bağlı qürur hissi keçiririk. Bütün bunlar Prezident İlham Əliyevin təhsilə, təhsil işçilərinə göstərdiyi yüksək diqqət və qayğısı, səmərəli fəaliyyət üçün yaratdığı əlverişli şərait və imkanlar sayəsində mümkün olub.

Son illərdə ölkədə təhsil müəssisələrinin inkişafı istiqamətində mühüm addımlar atılmış, müxtəlif şəhər və rayonlarda təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası istiqamətində uğurlu işlər görülmüşdür. Məktəb tikintisi ilə bağlı qəbul olunmuş dövlət proqramları bu sahədə sürətli inkişafı təmin edib. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı qəbul olunan dövlət proqramlarında da məktəb tikintisinə xüsusi önəm verilir. Bakı və Abşeronun sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında yeni məktəblərin tikintisinə diqqət yetirməklə yanaşı, mövcud məktəblərin əsaslı təmirinə də yer ayrılıb.

## GÜCLÜ DÖVLƏTİN SAĞLAM DÜŞÜNCƏLİ VƏ İNTELLEKTUAL SƏVİYYƏLİ GƏNCLƏRİ

Azərbaycanda son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, dövlət proqramları və islahatlar bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir. Təbii sərvətlərlə zəngin olan Azərbaycan, bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının yaradılması və daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Buna görə də, neft gəlirləri Azərbaycanda, həm də təhsilin inkişafına yönəldilib. Şübhəsiz ki, bütün bunlar təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib. Qətiyyətlə deyə bilərik ki, Azərbaycanın gələcəyi üçün layiqli, ləyaqətli və vətənpərvər gənclər yetişir. Respublika və beynəlxalq səviyyədə fənn olimpiadaları keçirilib və iştirak edən şagirdlərin sayı xeyli artıb. Azərbaycan məktəblilərinin beynəlxalq bilik yarışlarında qazandıqları uğurlar bir-birini əvəz edir.

Ardıcıl olaraq, təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin burada şəxsiyyət kimi formalaşmasına təsirini göstərməkdədir. Müasir dövrümüzdə bu islahatların ən mühüm mərhələsi yaşanılır. Təhsilin məzmunu, keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri davam edir. Yeni məktəb binalarının inşası və təhsilin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından, çox mühüm addımlardandır. Ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, deməyə əsas verir ki, Azərbaycanda bu sahədə görülən işlər uğurlu işıqlı gələcəyimizə hesablanıb.

Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı günü-gündən çiçəklənən ölkəyə çevirir. Hər bir gənc harada çalışmağından asılı olmayaraq, dövlətimizə, dövlətçiliyimizin qorunmasına və milli-mənəvi dəyərlərimizin yaşamasına xidmət edəcəklər. Təbii ki, bu, hər bir vətəndaşın borcu olmalıdır.

Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb. Təhsilin səviyyəsi keyfiyyət baxımından yeni mərhələsini yaşayır. Müasir gənclik ab-havanın içərisində məsuliyyət hissini ön plana çəkir. Azərbaycanın gələcək inkişafına doğru potensialını ortaya qoyur. İctimai-siyasi həyatda qlobal dəyişikliklərin aparılması gənclərin dünyaya inteqrasiya olunmasına gətirib çıxarır. Bu, dövlət tərəfindən Azərbaycan təhsilinə göstərilən diqqət nəticəsində reallaşır. Ölkəmizdə iqtisadi, mədəni və sosial sahələrdə aparılan islahatlar Azərbaycan təhsilinə təsirini göstərməkdədir. Prezident İlham Əliyevin vurğuladığı kimi, ”Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir”. Buna görə də, məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı günü-gündən çiçəklənən ölkəyə çevirir. Hər bir gənc harada çalışmağından asılı olmayaraq, dövlətimizə, dövlətçiliyimizin qorunmasına və milli-mənəvi dəyərlərimizin yaşamasına xidmət edəcəklər. Təbii ki, bu, hər bir vətəndaşın borcu olmalıdır.

Bugünkü məzunlar Azərbaycanın demokratik bir dövlət kimi daha da inkişaf etdirilməsi üçün çalışmalı, bütün qüvvələrini ölkəmizin uğurlarına yeni uğurlar əlavə etməyə sərf etməlidirlər. Bu günün məzununu həyata hazırlayan güclü dövlətimiz, sağlam düşüncəli ziyalılarımız olduğundan mətin, iradəli və intellektual səviyyəli gənclərimiz müstəqil həyata vəsiqə alırlar.

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA SON ZƏNG ÇALINIR

İşğaldan azad olunan ərazilərdə tikilən məktəblərdə ”Son zəng” çalınır. Qeyd edək ki, ermənilərin torpaqlarımızın işğalı nəticəsində təkcə Füzuli rayonunda 100-ə qədər orta təhsil və texniki peşə məktəbi ermənilər tərəfindən məhv edilib. Digər qədim yaşayış məskənlərimizdən biri olan Qubadlıda yaşı 100 ildən çox olan ilk dünyəvi məktəb də ermənilər tərəfindən dağıdılıb. Azərbaycanın mədəniyyət beşiyi hesab edilən Şuşa şəhərinin işğalı nəticəsində isə 23 ümumtəhsil məktəbi, 6 məktəbəqədər uşaq müəssisəsi, 7 məktəbəqədər uşaq tərbiyə müəssisəsi, peşə-ixtisas məktəbi, Mədəni-maarif, Kənd təsərrüfatı, M.M.Nəvvab adına Musiqi texnikumları, 2 saylı Bakı Baza Tibb Texnikumunun filialı, həmçinin Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin və Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Ədəbiyyat İnstitutunun filialları dağıdılıb. Şuşa Realnı Məktəbi də ermənilər tərəfindən dağıdılaraq xarabalığa çevrilib. Ağdam şəhərində musiqi, kənd təsərrüfatı, kənd təsərrüfatı mexanikləşdirmə və elektrikləşdirməsi texnikumları, 9 ümumtəhsil və internat məktəbi, iki peşə məktəbi, həmçinin Uşaq Şahmat məktəbi uşaq-gənclər idman məktəbi, ekoloji tərbiyə və təcrübəçilik məktəbi, tibb məktəbləri, texniki yaradıcılıq mərkəzi və gənclər yaradıcılıq mərkəzi fəaliyyət göstərirdi. Zəfər qazanmış Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda apardığı irimiqyaslı tikinti-quruculuq işləri çərçivəsində məktəblərin də tikilib yenidən istifadəyə verilməsinə start verilib. Bu sahədə ilk müjdə Zəngilanın Ağalı kəndindən oldu. Əlamətdar haldır ki, işğaldan azad olunan ərazilərimizdən bir çoxunda son zəngin sədaları eşidilir. Məktəbə qədəm basan şagirdlər bu torpaqda - əzəli torpaqlarımızda elmin sirlərinə bələd olub, Vətən torpağının müqəddəsliyini bir daha təhsilverənlərdən əxz ediblər. Laçın rayon 2 nömrəli tam orta məktəbin üçmərtəbəli binasının sahəsi 4550 kvadratmetrdir. Binada 24 yerlik doqquz, 18 yerlik beş və 12 yerlik dörd sinif otağı, bir informatika, bir texnologiya kabineti, 3 laboratoriya, 18 yerlik məktəbəhazırlıq otağı və 24 yerlik hərbi hazırlıq kabineti var.

Zabuxda inşa olunan üçmərtəbəli məktəbdə şagirdlər bir məslək, bir əqidə uğrunda burada təhsil alırlar. Elmli, savadlı və sabahın qurucusu olaraq yetişirlər. Azərbaycan gəncliyinin bir qismi bu məktəbdən boy atır.

QÜRURLU VƏ LƏYAQƏTLİ XALQIN MƏZUNLARI, yolunuz uğurlu olsun!




***Zümrüd BAYRAMOVA***

# “15 İyun sadəcə bir tarix deyil, bir millətin qurtuluş günüdür”










***Milli Qurtuluş Günü – 15 iyun, Azərbaycan tarixində mühüm dönüş nöqtəsidir. 1993-cü ildə ölkədə siyasi böhran və xaos yaşanarkən xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə qayıtdı. Onun rəhbərliyi ilə ölkədə sabitlik bərpa olundu, dövlətçilik əsasları möhkəmləndi, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı. Bu gün Azərbaycanın müstəqil və güclü dövlət kimi inkişafının təməlini qoyduğu üçün Milli Qurtuluş Günü böyük tarixi və siyasi əhəmiyyətə malikdir.***

SİA mövzu ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənib.

**Şəhər sakini, ehtiyatda olan polkovnik Telman Tağıyev:** ”15 iyunla bağlı çox gözləntilərimiz olmuşdu. Bu gün Ulu Öndər Heydər Əliyevin Azərbaycana qayıdışı, əslində bizim üçün böyük bir dönüş nöqtəsi oldu. Bu, təkcə sadə bir rəhbərin geri dönməsi deyildi, bu, Azərbaycanın tale yolunda bir istiqamət dəyişikliyi idi. O vaxtlar ölkə xaosdaydı, şimalda, cənubda, hər tərəfdə qarşıdurmalar, idarəolunmazlıq hökm sürürdü. Mən heç “xarici qüvvələr”, “daxili təsirlər” demirəm, sadəcə olaraq, böyük bir rəhbərsizlik hökm sürürdü. Dövlətin özü belə süqutun bir addımlığında idi. Ulu Öndər gəldi. Qısa zamanda ölkədə sabitliyi bərpa etmək üçün addımlar atdı. Özünü riskə ataraq Gəncəyə getdi, vəziyyəti yerindəcə araşdırdı, xalqla üzbəüz dayandı. Bundan sonra baş verənlər isə artıq hamının gözü qarşısında oldu. Mən Ulu Öndərə minnətdaram. Onun yolunu, ideyalarını hər zaman dəstəkləmişəm. Əqidəm bu yolda dəyişməyib və heç vaxt da dəyişməyəcək. Bu gün isə Onun siyasi varisi, Müzəffər Ali Baş Komandanımız Prezident İlham Əliyev onun başladığı işi uğurla davam etdirir. Allah onun canını sağ eləsin! O, Azərbaycanın tamlığı, bütövlüyü naminə tarixdə görünməmiş bir qələbəyə imza atdı. 270 il ərzində heç bir sərkərdə, heç bir lider Azərbaycan torpaqlarını geri qaytara bilməmişdi. Bu, böyük zəfərdir və bu zəfərin arxasında güclü iradə, xalqla bir olan lider dayanır. Biz hamımız bu uğur üçün Prezidentə, Ordumuza, şəhidlərimizə borcluyuq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə can sağlığı versin! Mən özüm də döyüş bölgəsində olmuşam, mənə də qismət oldu ki, döyüş yolu keçdim. Amma mənimlə bərabər döyüşən, məndən daha cəsarətli, məndən daha igid olan çox əsgərimiz şəhid oldu. Onları heç vaxt unutmayacağıq. Bu gün biz azadıqsa, sabitlik içindəyiksə, bunun kökündə Ulu Öndərin 1993-cü ildə atdığı qətiyyətli addımlar durur. 15 İyun sadəcə bir tarix deyil, bir millətin qurtuluş günüdür”.

**Şəhər sakini Ərrəhman Əhmədov:** ”Sovet İmperiyasının tərkibindən çıxdıqdan sonra ölkədə hərc-mərclik hökm sürürdü. Məhz 15 iyun Milli Qurtuluş Günü, Allah rəhmət eləsin Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə, bu qarışıqlığa son qoyuldu. Onun sayəsində xalq dövlətçiliyə, sabitliyə, nizama qovuşdu. Milli Qurtuluş Günü millət olaraq quruluş və birliyin başlanğıcı oldu”.

**Şəhər sakini Rəqibə Hüseynzadə:** ”1993-cü ildə deyə bilərik ki, Azərbaycanın taleyinin dəyişdiyi bir məqamda mərhum prezident Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsi prosesi gedirdi. Vətəndaş qarşıdurması vəziyyəti yaranmışdı. Hətta ordu hissələri bir-birinin qarşısına çıxarılırdı. Zirehli texnikalar küçələrdə idi. Vəziyyət çox gərgin və təhlükəli idi. Əslində bu, bir qardaş qırğınına çevrilə bilərdi. Ancaq vəziyyət dəyişdi. İnsanlar təmkin göstərdi, Heydər Əliyevin siyasi təcrübəsi və xalqın ona olan inamı nəticəsində proseslər sakitləşdi. Ordu hissələri geri çəkildi. Qan tökülmədən məsələ yoluna qoyuldu. Bu da göstərdi ki, düzgün liderlik və xalqın birliyi ilə ən çətin vəziyyətlərdən belə çıxmaq mümkündür”.

**Şəhər sakini Elxan Bəylərov:** ”Çünki həmin dövrdə Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Ölkədə baş verən proseslər demək olar ki, nəzarətdən çıxmaq üzrə idi. Buna səbəb isə idarəçilikdəki səriştəsizlik idi. Məhz belə bir zamanda siyasi liderlik keyfiyyətinə malik, peşəkar bir siyasətçinin Heydər Əliyevin hakimiyyətə gəlməsi, ölkədə cərəyan edən prosesləri nəzarətə götürməsi, müxtəlif bölgələrdə alovlanan münaqişələri minimum müddətdə və maksimum səviyyədə həll etməsi, bütövlükdə ölkəni səfərbər edib diqqəti Qarabağ müharibəsinə yönəltməsi xalqımızın tarixində mühüm əhəmiyyət kəsb etdi. Məhz o çaxnaşma, çaşqınlıq və böhran vəziyyətindən çıxış yolu tapıldı. Bu, əslində bir xilasa, bir qurtuluşa aparan yol idi. Ona görə də həmin gün 15 İyun ölkəmiz üçün təkcə siyasi deyil, həm də mənəvi baxımdan böyük əhəmiyyət daşıyır”.

**Şəhər sakini Gülarə Qocayeva:** ”Azərbaycanın müasir tarixində15 İyun xüsusi əhəmiyyətə malik gündür. Bu gün təkcə bir tarixi fakt deyil, eyni zamanda bir xalqın gələcəyini dəyişdirən böyük dönüş nöqtəsidir. 1993-cü ilin həmin iyun günlərində ölkə ağır sınaqlarla üz-üzə idi. Dövlətçiliyin əsasları sarsılmış, vətəndaş müharibəsi təhlükəsi reallığa çevrilmiş, iqtidar və idarəçilik böhranı dərinləşmişdi. Hakimiyyətin zəifliyi, siyasi qeyri-sabitlik və regionlarda baş verən silahlı qarşıdurmalar ölkəni faktiki olaraq parçalanma həddinə çatdırmışdı. Belə bir məqamda xalqın təkidi və çağırışı ilə Ulu Öndər Heydər Əliyev siyasi hakimiyyətə qayıtdı. Onun 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilməsi ilə ölkədə yeni bir mərhələ başlandı. Bu, Azərbaycanın məhv olmaq təhlükəsindən xilas edilməsi və sabitliyə, inkişaf yoluna qədəm qoymasının başlanğıcı oldu. Məhz Heydər Əliyevin zəngin siyasi təcrübəsi, dəmir iradəsi və uzaqgörən liderlik bacarığı sayəsində ölkədə vətəndaş qarşıdurmasının qarşısı alındı, dövlət institutları bərpa edildi, ordu quruculuğu başladı və beynəlxalq aləmdə Azərbaycanın mövqeyi möhkəmləndirildi.15 İyun bu mənada yalnız bir tarixi gün deyil, həm də milli dirçəlişin, xalqla dövlətin birliyinin, sabitliyin və inkişafın başlanğıc nöqtəsidir. Bu səbəbdən də 15 İyun Azərbaycan tarixində Milli Qurtuluş Günü kimi rəsmiləşdirilmiş və hər il bayram kimi qeyd olunur. Bu gün yalnız Heydər Əliyevin siyasi irsinə hörmətin ifadəsi deyil, həm də müstəqil Azərbaycanın əldə etdiyi bütün uğurların təməlində duran qərarın xatırlanmasıdır. Əgər 1993-cü ildə xalq bu seçim etməsəydi, bu gün müstəqil, güclü və qalib Azərbaycan reallığı olmayacaqdı. 15 İyun – qurtuluşun, vəhdətin, dirçəlişin və gələcəyə inamın rəmzidir”.

SORĞU

**Söylü Ağazadə**

***İyunun 15-də ABŞ-İran danışıqlarının növbəti raundu başlamazdan əvvəl İsrail İranın nüvə infrastrukturuna və ali rəhbərliyinə bir sıra hücumlara başlayıb. Yəhudi dövlətinin rəsmiləri əməliyyatı qabaqlayıcı addım adlandırıb. Hava hücumları ilə yanaşı, İsrailin Mossad kəşfiyyat agentliyi İslam Respublikasında raket inkişafı və hava hücumundan müdafiə sistemləri ilə məşğul olan obyektləri hədəf alaraq bir sıra təxribat əməliyyatları həyata keçirib. İran cavab tədbirləri görəcəyini vəd edib və hadisəyə görə ABŞ-ı məsuliyyət daşıdığını bildirib.***



# İran nüvəsindən vuruldu

## *İsrail əsas regional düşməni ilə müharibəyə başlayıb*

Qərb kəşfiyyatının bir gün əvvəl proqnozlaşdırdığı kimi, iyunun 13-ü səhər İranda silsilə partlayışlar baş verib. İsrailin





baş naziri Benyamin Netanyahu deyib: "Biz yüksək komandanlığı vurduq, atom bombasının hazırlanmasında irəliləyən aparıcı alimləri vurduq. Biz nüvə obyektlərinə hücum etdik. Biz İranın nüvə zənginləşdirmə proqramının ürəyinə zərbə vurduq, İranın nüvə silahı proqramının ürəyinə zərbə vurduq. Biz bu əməliyyatı əbəs yerə "şir kimi xalq" adlandırmamışıq."İncil"də də yazılıb: "Xalq şir kimi ayağa qalxır". Biz böyük uğurlara imza atacağıq. Sizin sayənizdə qəhrəman əsgərlərimizin sayəsində və Uca Yaradanın köməyi ilə". Netanyahu həmvətənlərini dözümlülük, seçilmiş yolun ədalətinə inam və yəhudi dövlətinin qələbəsinə inam ehtiyatı toplamağa çağırıb.

İsrail ordusunun rəsmi açıqlamasına görə, əməliyyata 200-dən çox təyyarə cəlb edilib, 330-dan çox sursat atılıb. Tehranın şimal-şərq hissəsində yüksək rütbəli məmurların yaşadığı Mahallati rayonu bombardmana məruz qalıb. Eyni zamanda İranın Natanz, Xürrəmabad və Həmədan şəhərləri də hücuma məruz qalıb. Rəsmi məlumatlara görə, İsrail zərbələr nəticəsində İranın bir neçə yüksək rütbəli rəsmisini, o cümlədən Baş Qərargah rəisi Məhəmməd Baqiri, İslam İnqilabı Keşikçiləri Korpusunun rəhbəri Hüseyn Səlamini hava hücumu ilə öldürülüb. Ayrı-ayrılıqda nüvə infrastrukturunun kritik komponentlərinin məhv edildiyi bildirilib. "Axios" portalının



məlumatına görə, təkcə İranın nüvə obyektləri deyil, həm də milli raket proqramının istehsal obyektləri, həmçinin hava hücumundan müdafiə sistemləri vurulub. Bu məlumatlara görə, Mossad cavab zərbələrinin qarşısını almaq üçün onlara qarşı xüsusi təxribat təşkil edib.

İranın ali dini lideri Ayətullah Əli Xamenei İsrailə qarşı dərhal cavab tədbirlərinin görüləcəyini vəd edib. Rəhbərin bəyanatında deyilir: "Sionist varlıq İran İslam Respublikasında əhalinin məskunlaşdığı ərazilərə zərbələr endirməklə iyrənc cinayət törədib. Bu təcavüz nəticəsində çoxlu liderlər və elm adamları öldürüldü, lakin onların davamçıları və həmkarları dərhal öz vəzifələrini yerinə yetirməyə davam etdilər".

İsrailin müdafiə naziri İsrael Katz həmvətənlərinə Tehrandan mümkün cavab hücumu təhlükəsi barədə xəbərdarlıq edib. Artıq yerli vaxtla saat 03:00-da israillilər İsrail ordusundan arxa komandanlığın göstərişlərinə ciddi əməl etmələrini tələb edən təcili xəbərdarlıq alıblar. Yəhudi dövlətinin vətəndaşlarına qorunan ərazilərə köçmək və onların yaxınlığında qalmaq əmri verilib.

ABŞ İrana hücumun hazırlanmasında iştirak etmədiyini bəyan edib. Bundan başqa, prezident Donald Tramp qeyd edib ki, o, Tehranla danışıqlar prosesinin davam edəcəyini, növbəti raundun iyunun 15-də Omanda keçiriləcəyini gözləyir: "İran nüvə bombası əldə edə bilməz və biz danışıqlar masasına qayıtmağa ümid edirik", – Ağ Ev rəhbəri Fox News jurnalistlərinə müsahibəsində izah edib. "Onların dialoqa qayıdıb-qayıtmayacağına baxacağıq. Rəhbərlikdə olan bir neçə nəfər geri qayıtmayacaq (yuxarı məmurların ölümü nəzərdə tutulur)".

Tramp administrasiyasının insidentə görə məsuliyyəti rədd etməsinə baxmayaraq, İran Xarici İşlər Nazirliyi hücumun ABŞ-ın "koordinasiyası və təsdiqi" olmadan baş verə bilməyəcəyini açıqlayıb.

ANALİTİK

Ardı Səh. 7

# İran nüvəsindən vuruldu





Əvvəli-Səh-6

İslam Respublikasının Xarici İşlər Nazirliyi İsrailin əsas xarici müttəfiqi kimi ABŞ-ın bundan sonrakı nəticələrinə görə tam məsuliyyət daşıyacağını vurğulayıb.

### İranın hərbi rəhbərliyi məhv edildi - IDF

200-dən çox qırıcı təyyarə 100-dən çox hədəfə, o cümlədən İranın yüksək səviyyəli hərbi rəhbərlərinin sığınacaqlarına hücum edib. Cümə gecəsi İsrail İranın yüksək hərbi rəhbərliyini sıradan çıxarıb. Bu barədə iyunun 13-də İsrail Müdafiə Qüvvələri (IDF) məlumat yayıb. "Gecə ərzində 200-dən çox IAF qırıcı təyyarəsi kəşfiyyat departamentinin dəqiq rəhbərliyi altında İranın yüksək rütbəli hərbi liderlərinin sığınacaqları da daxil olmaqla, İran boyu 100-dən çox hədəfə hücum edib".

Zərbələrdə İranın üç yüksək səviyyəli hərbi komandiri öldürülüb:

İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Hüseyn Baqiri;

İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) komandanı Hüseyn Salami;

Hatəm əl-Ənbiya (Fövqəladə Hallar Komandanlığı) komandiri Hatəm-Qalam Əli Rəşid.

Bundan əvvəl İran mediası yüksək səviyyəli iranlı komandirlərin sıradan çıxarılması barədə məlumat yaysa da, daha sonra İRNA xəbər agentliyi Məhəmməd Baqirinin ölümü ilə bağlı mətbuatda yayılan xəbərləri təkzib edib. Amma sonradan təsdiq etməli olub.

Xatırladaq ki, iyunun 13-nə keçən gecə İsrail İran ərazisinə hava zərbələri endirib. Tehran və bir sıra digər şəhərlərdəki nüvə və hərbi obyektlərə hücum edilib. İranın nüvə proqramında iştirak edən çoxlu əsgər və alim həlak olub. İDF əməliyyatı İranın nüvə silahı istehsalını sürətləndirməsi və artıq bir neçə gün ərzində 15 nüvə bombası yaratmaq üçün kifayət qədər zənginləşdirilmiş urana malik olması ilə izah edib. Bu arada İran İsrailin nüvə obyektlərinə zərbə endirməsindən sonra İsrail və ABŞ-ı "sərt cavab"la hədələyir. İran ordusunun sözçüsü Əbülfəzl Şekarçi deyib: "Onlara güclü zərbə vurulacaq". İndi İranın İsrailə yüzdən çox pilotsuz uçuş aparatı atdığı məlum olub.

### MAQATE İsrailin İrana hücumuna cavab verib

Zərbələrin hədəflərindən biri də Natanz şəhərindəki obyekt olub. Agentlik hazırda radiasiya səviyyələri ilə bağlı İran rəsmiləri




ilə əlaqə saxlayır. İsrailin bir gecədə endirdiyi zərbələr zamanı İranın Fordov və İsfahandakı nüvə obyektləri, eləcə də Buşehr AES-i zədələnməyib. Bu barədə cümə günü, iyunun 13-də Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) məlumat yayıb. MAQATE X sosial şəbəkəsində agentliyin rəhbəri Rafael Qrossiyə istinadən yazıb: "Bu günə olan məlumata görə, Fordodakı nüvə zənginləşdirmə obyekti zədələnməyib".

MAQATE də İsfahandakı obyekt və Buşehr atom elektrik stansiyası ilə bağlı oxşar mesajlar dərc edib. Eyni zamanda, agentliyin İranda dərin narahatlıq doğuran vəziyyəti diqqətlə izlədiyi vurğulanır. "Agentlik Natanz obyektinin hədəflərdən biri olduğunu təsdiqləyə bilər. Agentlik radiasiya səviyyəsi ilə bağlı İran rəsmiləri ilə əlaqə saxlayır. Biz ölkədəki müfəttişlərimizlə də əlaqə saxlayırıq", - deyə məlumatda bildirilir.

Xatırladaq ki, bir gün əvvəl MAQATE İranı son 20 ildə ilk dəfə olaraq nüvə öhdəliklərini pozmaqda ittiham etmişdi. Qətnaməni 19 ölkə dəstəkləyib. Rusiya, Çin və Burkina Faso buna qarşı idi. Və bu gecə İsrail İrandakı nüvə obyektlərinə qabaqlayıcı zərbə endirib. İranın hərbi komandanlığı, nüvə alimləri məhv edilib, bir sıra nüvə obyektlərinə ziyan dəyib.

### Mossad İranda gizli kamikadze dron bazası yaradıb

İsrail kəşfiyyatçıları İran İslam Respublikası ərazisində partlayıcı maddələr olan pilotsuz uçuş aparatları bazası yaradıblar. İsrail kəşfiyyatı üç gizli əməliyyat keçirib. Bunu kəşfiyyat xidmətindəki mənbəyə istinadən israilli jurnalist Amit Seqal bildirib. Mərkəzi İranda Mossad agentləri zenit sistemlərinin yanında dəqiq silahlar yerləşdiriblər. Hücum başlayanda raketlər birbaşa Tehranın nəzarətində olan ərazilərdən İranın hava hücumundan müdafiə sistemlərinə atılıb.

Mossad başqa bir əməliyyatda İranın hava hücumundan müdafiə sistemlərini sıradan çıxarmaq üçün maşınlara xüsusi qurğular quraşdırıb. Agentlər gizli nəqliyyat vasitələri ilə strateji obyektlərin ətrafında gəzirdilər. Bütün yerləşdirilən sistemlər İranda qurulub. Bundan əlavə, İsrail kəşfiyyatçıları İran İslam Respublikası ərazisində partlayıcı maddələr olan pilotsuz uçuş aparatları bazası yaradıblar. Onlar hədəflərə hücumun əvvəlində aktivləşdirilib. Dronlar Tehran yaxınlığındakı Əsfahabad bazasında yer-yer raket buraxılış qurğularını məhv edib. İsrailin müdafiə naziri İsrael Katz bildirib ki, İsrail Ordusu İranın nüvə proqramını pozmağa yönəlmiş əməliyyatları davam etdirəcək.

Qeyd edək ki, iyunun 1-də Ukrayna Ordusu ilk dəfə Rusiya strateji aviasiyasına qarşı analoji irimiqyaslı "Hörümçək toru" adlı xüsusi əməliyyat keçirib. Pilotsuz təyyarənin hücumu nəticəsində dörd aerodromda düşmənin 41 təyyarəsi vurulub, onlardan 13-ü tamamilə məhv edilib. Müasir Rusiya yeni strateji bombardmançı təyyarələr istehsal etmək iqtidarında deyil. Məlum olduğu kimi, İsrailin Milli Kəşfiyyat Xidməti Mossad daha sonra Ukraynanın Rusiya Federasiyasındakı aerodromlarda Rusiya strateji aviasiyasının məhv edilməsi əməliyyatını şərh edib.

### İsrail İranda bir sıra təxribat əməliyyatları həyata keçirdi

İrana hava zərbələri endirməklə yanaşı, İsrail İslam Respublikası ərazisində raket və hava hücumundan müdafiə ilə əlaqəli obyektlərə qarşı bir sıra təxribat əməliyyatları həyata keçirib. Bu barədə X sosial şəbəkəsində "Axios" internet portalının jurnalisti Barak Ravid məlumat verib. Onun İsrail rəsmiləri arasından olan mənbəsinin sözlərinə görə, yəhudi dövlətinin kəşfiyyat xidməti Mossad İran ərazisində "bir sıra gizli təxribat əməliyyatları həyata keçirib". Onların məqsədi İran raketlərinin yerləşdiyi obyektlərə, eləcə də respublikanın hava hücumundan müdafiə sistemlərinə zərər vurmaq olub.

### İrandan İsrailə 100 PUA

İsrail Müdafiə Qüvvələrinin (IDF) sözçüsü Efi Defrin brifinqdə deyib ki, İran son saatlarda İsrailə 100-dən çox pilotsuz təyyarə göndərib. "Son saatlarda İran öz ərazisindən İsrail dövləti ərazisinə doğru 100-dən çox pilotsuz uçan aparat atıb. "Təhlükələrin qarşısını almaq üçün bütün sistemlər hazırdır", - Defrin əlavə edib. İsrail ordusunun sözçüsü israillilərdən "səbir və səbir nümayiş etdirmələrini" xahiş edib, çünki onlar "çətin günlərdə"dirlər.

### İran-ABŞ danışıqları olacaqmı?

New York Times (NYT) xəbər verir ki, İran hakimiyyəti dövlət televiziyası vasitəsilə ABŞ-la nüvə sazişi üzrə danışıqları dayandırdıqlarını elan edib. Tərəflər iyunun 15-də Omanda görüşməli idi. Məlumata görə, Tehran və Vaşinqton arasında danışıqların altıncı raundu "sonrakı xəbərdarlığa qədər" baş tutmayacaq. ABŞ prezidenti Donald Tramp Fox News telekanalına verdiyi şərhdə İsrailin İrana yaxınlaşan zərbəsindən xəbərdar olduğunu bildirib. Eyni zamanda o, İran tərəfinin danışıqlar masasına qayıdacağına ümid etdiyini bildirib.

Danışıqların əvvəlki beş raundu İranın nüvə proqramının məhdudlaşdırılmasına həsr olunmuşdu. Xüsusilə, Vaşinqton Tehranın uranın zənginləşdirilməsini istənilən yolla dayandırmasını təmin etməyə çalışırdı. İran atomun sülh yolu ilə inkişafına qoyulan qadağanı "qırmızı xətt" adlandırıb. Razılığa gəlmək mümkün olmadığından yeni görüş təyin edilib. Danışıqlardan imtina İranın İsrailin Natanz nüvə obyektini hədəflərindən biri kimi daxil etdiyi hava kampaniyasına cavablarından biri idi. Nour News xəbər verir ki, İsrail ordusunun zərbəsi nəticəsində 6 iranlı nüvə alimi həlak olub.

**V.VƏLİYEV**

# Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu vəhdət təşkil edir




*Vətəndaş cəmiyyətinə demokratik, müstəqil, inkişaf etmiş ölkələrdə rast gəlinir. Öna görə ki, insanların siyasi deyil, başlıca olaraq iqtisadi və şəxsi həyat fəaliyyəti ön planda olan bu cəmiyyətdə avtoritar hakimiyyətdən, sinfi düşmənçilikdən, totalitarizmdən, zorakılıqdan söhbət belə gedə bilməz və məhz bu baxımdan da demokratik ölkələr məhz vətəndaş cəmiyyətinə üstünlük verirlər.*



Bununla belə, unutmaq lazım deyil ki, vətəndaş cəmiyyəti dövlətdən tam təcrid olunmuş formada inkişaf edə bilməz və bu cəmiyyət dövlətlə sıx qarşılıqlı əlaqədə olmaqla, bütün sahələrdə dövlətin dəstəyinə arxalanır. Bu baxımdan da cəsarətlə deyə bilərik ki, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu vəhdət təşkil edir.

Ailə, ictimai, ictimai-siyasi, siyasi təşkilatlar və hərəkatlar, yaşayış yeri, əmək və başqa kollektivlərlə əlaqədar ictimai özünü idarəetmə orqanları Vətəndaş cəmiyyətinin sosial-siyasi sferasını təşkil edən əsas elementlərdir. Bu baxımdan, vətəndaş cəmiyyətinin inkişafının təməl prinsiplərinin məhz ictimai fikrin formalaşması, eləcə də ifadə edilməsi mexanizmlərinin üzə çıxarılması, sosial konfliktlərin həlli, müstəqil media, cəmiyyətin maraqlarını qoruyan və müdafiə edən konstitusiya, ədalətə söykənən məhkəmə-hüquq sisteminin formalaşması olması heç də təsadüfi deyil.

Vətəndaş cəmiyyətinin formalaşmasının ilk növbədə insan faktoruna dayanması, fərdin iqtisadi azadlığı, müxtəlif mülkiyyət formaları və onun qorunması da bəllidir. Bəlli olan odur ki, vətəndaş cəmiyyəti insanların təhkimçilikdən azad edilməsi, onların dövlətin təbəəsindən çıxaraq, məhz təsərrüfat və siyasi məsuliyyəti üzərinə götürməyə hazır olması ilə ilk əvvəl formalaşıb. Bu cəmiyyət özünün müasir formasına gəlib çatmasında uzun bir təkamül yolu keçib. Müasir dövrdə, dövrümüzdə vətəndaş cəmiyyəti dedikdə azad sahibkarlıq, siyasi plüralizm, təşəbbüskarlıq mühiti başa düşülür. İstehsal vasitələrinə, pul kapitalına, aksiyalara, insanlara gərəkli olan informasiyalara, intellektə və xüsusən də işçi qüvvəsinə malik olan insanların demokratik cəmiyyəti məhz vətəndaş cəmiyyətidir və bu cəmiyyət rəsmi hakimiyyətlə eyniləşdirilməyən digər fəaliyyət formalarının sinonimi kimi qəbul edilməkdədir. Uzun illər ərzində, daha dəqiq desək, Sovet dönəmində, düz yetmiş il boyunca kollektivləşmə adı altında insanların dövlətə məxsus təsərrüfatlarda bir araya gətirilməsi əslində, şəxsi mülkiyyətçiliyin əleyhinə atılan bir addım olaraq, müasir vətəndaş cəmiyyətinin formalaşmasını Azərbaycanda on illərlə əngəllədi. Amma müstəqillik əldə edildikdən sonra bu istiqamətdə dövlət səviyyəsində bir-birinin ardınca qəbul olunan qanunlar Azərbaycanda istər sahibkarlığın, istərsə də qeyri-hökumət təşkilatlarının yaranması, beləliklə də vətəndaş cəmiyyətinin formalaşması üçün geniş imkanlar, əsaslı zəmin yaratdı.

Ölkəmiz öz müstəqilliyini əldə etdiyi dövrdə çox böyük problemlərlə, qayğılarla üzləşsə də, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu sahəsində nailiyyətlər qazana bildi. Digər istiqamətlərdə, digər sahələrdə olduğu kimi vətəndaş cəmiyyətinin yaradılmasında da nailiyyətlərin qazanılmasında xalqımızın təkidlə tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri oldu və bu xidmətlər danılmazdır. Ulu Öndər özünün unikal siyasi savadı və fenomenal strategiyası ilə Azərbaycanda hüquqi dövlət quruculuğunun sarsılmaz təməlini qoydu, əsaslarını yaratdı. "Biz istəyirik ki, dövlətimiz tam demokratik, tam hüquqi, tam dünyəvi bir dövlət olsun və bunun üçün də Azərbaycanda demokratiyanın bərqərar olması, inkişaf etdirilməsi, hüquqi aliliyin təmin olunması əsas vəzifəmizdir...", deyə bəyan edən Ulu Öndər ölkəmizdə vətəndaş cəmiyyətinin, hüquqi dövlət quruculuğunun yaradıcısı hesab olunur.

Sözsüz ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan hüquqi dövlətin və vətəndaş cəmiyyətinin inkişafı istiqamətində çox böyük işlər görülüb və Ulu Öndərin layiqli davamçısı, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə islahatlar aparılıb. İnsanların hüquq və azadlıqlarının təminatına, dövlətin vətəndaş qarşısında, vətəndaşın isə dövlət qarşısında məsuliyyətinə, qanunun aliliyi və hüquq-mühafizə orqanlarının effektivliyinə, hüquqi dövlət quruculuğuna həssaslıqla yanaşılıb, xüsusi önəm verilib. Ölkəmizin hüquq sisteminin demokratik prinsiplər əsasında tamamilə yenidən qurulması, Azərbaycan Respublikasının yeni Konstitusiyasının qəbul olunması, ölkədə mütərəqqi məhkəmə-hüquq islahatlarının əsası qoyulması sadalananları təsdiq edir. Təsdiq edir ki, həyata keçirilən islahatlar başlıca olaraq bir məqsədə, daha dəqiq desək, vətəndaşların hüquq və azadlıqlarının etibarlı şəkildə qorunmasına, ədalət mühakiməsinin təmin edilməsinə və təkmilləşdirilməsinə yönəldilib. Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Milli Sahibkarlığa Kömək Fondu və digər bu kimi sırf vətəndaş cəmiyyətinin inkişafına yönəlik təsisatların yaradılması və onların fəaliyyətinin stimullaşdırılması yönündə aparılan islahatlar, bir sıra QHT-lərin xarici donorlardan asılılığının minimuma endirilməsi işinin təşkili istiqamətində atılan addımlar isə dövlətin ölkədə sağlam vətəndaş cəmiyyətinin formalaşmasında maraqlı olduğunu isbatlayır. Vətəndaşların maraq və tələbatlarını, azadlıqlarını ifadə edən vətəndaş cəmiyyətinin əsas elementləri kimi insan hüquq və azadlıqlarının qeyd-şərtsiz tanınması və qorunması, qanun qarşısında hər kəsin bərabərliyi, KİV-in müstəqilliyi və digər bu kimi demokratik dəyərlər Azərbaycanda ön plandadır və qorunur. Ölkəmizdə üç min beş yüzdən artıq vətəndaş cəmiyyəti var. Bu isə onu göstərir ki, Azərbaycan Respublikası vətəndaş təşəbbüslərinin dəstəkləndiyi, siyasi plüralizmin əsas götürüldüyü demokratik cəmiyyətin formalaşdığı ölkələr sırasındadır. Vətəndaş cəmiyyətinin inkişafı ilə bağlı proseslər bütün dünyada olduğu kimi, ölkəmizdə də eyni məcrada davam etməkdədir. Azərbaycanda ildən-ilə vətəndaşların sosial fəallığının artması özünü muxtəlif cəmiyyətlərin, birliklərin, sosial hərəkatların yaranması və fəaliyyətini genişləndirməsi ilə göstərir. Bütün bu sadalananlar onu deməyə əsas verir ki, bizdə vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu vəhdət təşkil edir.




**İnam Hacıyev**

Təhlil

# Türk dünyasının onkoloqları Bakıda







## Prezident İlham Əliyev: "Azərbaycanın səhiyyə sistemi bu gün yüksək hazırlıqlı kadr potensialına malikdir"

***Respublikamızda son illər baş verən sürətli iqtisadi inkişaf bütün sosial sahələrin, o cümlədən, səhiyyənin inkişafına da əsaslı təkan verib. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkə səhiyyəsi yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan səhiyyəsinin müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşaması ölkəmizin iqtisadi gücünün, siyasi sabitliyin təzahürüdür. Müasir dövrümüzdə səhiyyənin idarə olunması, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və digər irimiqyaslı tədbirlər həyata keçirilib. Bütün bu uğurlar səhiyyənin dünya standartları üzrə inkişafına, onun dünyanın qabaqcıl ölkələrinin səhiyyə sisteminə ardıcıllıqla inteqrasiya edilməsinə zəmin yaradan amillərdir.***

"Azərbaycanın səhiyyə sistemi bu gün müasir müayinə və müalicə üsulları üçün kifayət qədər geniş imkanlar yaradan zəngin maddi-texniki bazaya və yüksək hazırlıqlı kadr potensialına malikdir. Respublikamızda səhiyyənin ayrı-ayrı sahələrinin sürətli inkişafını nəzərdə tutan layihələr və dövlət proqramları ardıcıl icra olunur". Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Türk Dövlətləri Təşkilatına üzv ölkələrin onkoloqlarının Bakıda keçirilən Birinci Konqresinin iştirakçılarına ünvanlandığı məktubda yer alıb. "İnsanların getdikcə daha sıx qarşılaşdıqları sağlamlıq problemlərinə diqqətin artırılması məqsədilə aktual mövzulu ilk belə tədbirin ölkəmizin paytaxtında təşkilini məmnunluq hissi ilə qarşılayır və bunu, Azərbaycanda onkoloji xidmətin ötən illər ərzində keçdiyi uğurlu yola, imza atdığı nailiyyətlərə verilən dəyərin xüsusi ifadəsi hesab edirəm", - deyə dövlətimizin başçısı bildirib.

### PROBLEMLƏRİN HƏLLİNDƏ ORTAQ SƏYLƏRİN GÜCLƏNDİRİLMƏSİNİN ZƏRURİLİYİ

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin onkoloqlarının Birinci Konqresinin Bakıda keçirilməsi təsadüfi deyildi. Türk dövlətləri arasında bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də əməkdaşlıq genişlənir və güclənir. Ötən ilin oktyabr ayında Şuşada keçirilən TDT-yə üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclası zamanı imzalanan Birgə Bəyannamə əməkdaşlığın yeni mərhələyə çatdırıb. Cari ilin aprel ayında Astanada təşkil olunan növbəti görüş isə bir daha qətiyyətimizi nümayiş etdirib. Həmin görüş çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatı ilə imzalanmış Anlaşma Memorandumu da bu yolda mühüm addımlardan biri olub. Azərbaycan Prezidenti qeyd edib ki, Türk Dövlətləri Təşkilatının ümumi hədəflərə yönəlmiş hərtərəfli əməkdaşlığı təşviq etməsi toplanmış qiymətli təcrübədən ölkələrimizin birgə faydalanmalarının və problemlərin həllində ortaq səyləri gücləndirmələrinin zəruriliyini ön plana çıxarır. "Bu baxımdan, Konqresdə dünyanın müxtəlif guşələrindən gəlmiş qabaqcıl mütəxəssislərin tibb elminin son yenilikləri əsasında birlikdə aparacaqları geniş diskussiya və ətraflı müzakirələrin Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə qurumları qarşısında duran məsələlərin bir çox mühüm aspektlərini əhatə etməsi təqdirəlayiqdir. İnanıram ki, Konqresiniz elmi və praktiki əhəmiyyəti ilə mövcud müalicə metodlarının daha da təkmilləşdirilməsi işinə öz töhfəsini verəcək, Türk dünyası ölkələri onkoloqlarının gələcək qarşılıqlı fəaliyyətinin başlıca prioritetlərini müəyyən edəcəkdir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

### ONKOLOGİYANIN AKTUAL PROBLEMLƏRİNİN BİRGƏ HƏLLİ YOLLARININ HAZIRLANMASINDA MÜHÜM PLATFORMA

Vurğulayaq ki, Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının Birinci Konqresində dünyanın 10 ölkəsini, həmçinin yerli və beynəlxalq təşkilatları təmsil edən alimlər, mütəxəssislər və rəsmi şəxslər iştirak edirlər. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, həmçinin Amerika Birləşmiş Ştatları, Almaniya, Tacikistan və Gürcüstandan olan nümayəndələr türkdilli ölkələrdə, eləcə də dünyanın bu sahədə böyük təcrübəsi olan dövlətlərində onkoloji xidmətlərin təşkili, baş-boyun şişlərinin müalicəsi və profilaktikası, torakal onkologiya, süd vəzi xərçəngi və digər mövzularda mühazirə və çıxışları dinləyəcək, fikir mübadiləsi aparacaqlar. Azərbaycanda bu formatda tarixdə ilk dəfə reallaşan Konqres türkdilli dövlətlər arasında onkologiya sahəsi üzrə elmi əməkdaşlığa töhfədir. Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının Birinci Konqresi iştirakçı ölkələrdə onkoloji xidmətin təşkilinin müzakirəsi, təcrübə və bilik mübadiləsinin aparılması, onkologiyanın aktual problemlərinin birgə həlli yollarının hazırlanması üçün mühüm platforma rolunu oynayacaq. Bu tədbir səhiyyənin onkologiya sahəsi və gələcək üçün olduqca önəmlidir. Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının Birinci Konqresi iştirakçı ölkələrdə onkoloji xidmətin təşkilinin müzakirəsi, təcrübə və bilik mübadiləsinin aparılması, onkologiyanın aktual problemlərinin birgə həlli yollarının hazırlanması üçün mühüm platforma rolunu oynayacaq.

Azərbaycana göstərdiyi birgə səylər və dəstək nəticəsində Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının Birinci Konqresi yüksək səviyyədə paytaxtımızda təşkil olunub. Onkologiya sahəsində əməkdaşlığa verilən əhəmiyyətin bariz nümunəsidir.

### ƏHALİNİN HƏR 5 NƏFƏRDƏN BİRİ XƏRÇƏNG XƏSTƏLİYİNƏ TUTULUR

Qlobal səviyyədə əhalinin yaşlanması, ətraf mühit amilləri, müxtəlif həyat tərzi nəticəsində xərçəng xəstəliyinin dinamikasında artım müşahidə olunur. 2022-ci ildə dünyada xərçəngə 20 milyon yeni tutulma halı aşkar edilib. Dünya əhalisinin hər 5 nəfərdən biri yaşam müddətində xərçəng xəstəliyinə tutulur. Təxminən hər il 400 min uşağa xərçəng diaqnozu qoyulur. 1960-cı illərdə uşaqların xərçəngdən sağalma faizi 10 idisə, hazırda bu rəqəm 90-nın üzərindədir. Hazırda ölkəmizin onkologiya sahəsində elmi potensialının böyük bir qisminin cəmləşdiyi Milli Onkologiya Mərkəzində onkoloji xəstəliklərin profilaktikası, aşkarlanması və müalicəsi üzrə işlər uğurla həyata keçirilir. Son illərdə Milli Onkologiya Mərkəzi beynəlxalq əlaqələri daha da genişləndirir.

Azərbaycanda onkoloji xəstəliklər sahəsində statistik göstəricilər də bu sahədə müsbət dinamikadan xəbər verir. Erkən aşkarlama faizi, ömür uzunluğu və digər göstəricilər əsasında ölkəmizdə onkoloji xidmətin effektivliyini bəyan etmək olar. Ən əsası, bu gün artıq Azərbaycanda onkoloji xəstəliklərə münasibət dəyişib, onkoloji diaqnoz artıq müalicəyə çağırış kimi qəbul olunur. Bu müalicənin əsas məqsədi tək insan həyatını qorumaq deyil, həm də onun həyat keyfiyyətini təmin etməkdir.

### DÜNYA STANDARTLARINA UYĞUN TİBB MÜƏSSİSƏLƏRİ

Ölkədə səhiyyə sahəsində aparılan islahatlar, Prezident İlham Əliyevin Sərəncam və tapşırıqlarına əsasən, tikilib istifadəyə verilən, yenidən qurulan tibb ocaqları Azərbaycan səhiyyəsinin inkişafının bu gün ən yüksək səviyyədə davam etdiyini göstərir. Müxtəlif aspektlərdən səhiyyədə aparılan uğurlu islahatlar əhalinin sağlamlığının təminatına, onun tam şəkildə dünya standartları səviyyəsində qurulmasına istiqamətlənib. Azərbaycanda müasir tibb avadanlığı və cihazlarla təchiz olunmuş yüzlərlə səhiyyə müəssisəsinin əhalinin istifadəsinə verilməsi elə insan sağlamlığına ayrılan diqqətdir. Bu gün ölkəmizdə "Talassemiya" Mərkəzi, Milli Onkologiya Mərkəzinin Uşaq Klinikası, Respublika Uroloji Klinik Xəstəxanası, Avropa standartlarına uyğun ən son texnologiyalarla təchiz olunmuş diaqnostika mərkəzləri və s. əhaliyə xidmət edir. Hər növ müasir tibbi avadanlıq və ləvazimatlarla təchiz olunmuş xəstəxanalar dünya standartlarına uyğunlaşdırılıb. Yeni istifadəyə verilən, təmir və bərpa olunan səhiyyə ocaqlarına dünyanın inkişaf etmiş ölkələri olan Almaniya və İsveçrə kimi ölkələrdən avadanlıqlar gətirilir.

Şəkərli diabet üzrə tədbirlər proqramı çərçivəsində diabet xəstələri daim dövlət hesabına dərman və özünənəzarət vasitələri ilə təmin olunurlar. Diabetli uşaqlar insulin şpris-qələmi ilə yanaşı, tədricən insulin pompası ilə təmin edilirlər.

Artıq bu gün Azərbaycan səhiyyəsi sürətli inkişaf dövrünü yaşayır. Bu gün ölkəmizdə əvvəllər əlacı olmayan bir sıra xəstəliklər müalicə edilir, mürəkkəb əməliyyatlar, o cümlədən, qaraciyər transplantasiyası, süni oynaq və açıq ürək əməliyyatları aparılır. Bütün bunlar Azərbaycanda səhiyyə sahəsində qazanılan uğurların yalnız bir qismidir. Uğurlarla yanaşı, ölkəmizdə səhiyyə sahəsində hələ görüləsi işlər də var. Ölkədə səhiyyə sahəsində aparılan islahatlar, Prezident İlham Əliyevin Sərəncam və tapşırıqlarına əsasən tikilib istifadəyə verilən, yenidən qurulan tibb ocaqları Azərbaycan səhiyyəsinin inkişafının bu gün ən yüksək səviyyədə davam etdiyini göstərir.

***Zümrüd BAYRAMOVA***

***“15 iyun 1993-cü il – Qurtuluş günü Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunan və xalqımız tərəfindən heç zaman unudulmaz bir gündür”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Kimitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.***




# “Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir”

Komitə sədri xüsusilə vurğulayıb ki, bu gün ölkəmizin və xalqımızın müqəddəratının həll olunduğu və taleyimizin üzümüzə güldüyü bir gündür. “Azərbaycan parçalanmadan, vətəndaş müharibəsindən, qardaş qırğınından, torpaqlarımızı daha geniş həcmdə işğaldan, ölkəni xaosdan, özbaşınalıqdan qurtaran bu günün dəyərini xalqımız verir və Qurtuluş günümüzlə qürur duyuruq. Çünki həmin gün xalqın təkidi və



*KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*

tələbi ilə Ulu Öndərimiz Heydər Əliyev yenidən hakimiyyətə gəlməsəydi inkişaf edən, dünyada tanınan, qələbələri ilə fəxr edən bugünkü Azərbaycandan, çiçəklənən torpaqlarımızdan danışmaq mümkün deyildi.

Heydər Əliyevin hakimiyyətə gəlişi ölkədə ictimai-siyasi sabitliyi bərqərar etdi, silahlı quruplaşmaları aradan götürdü, orduda intizam yaratdı, özbaşınalıqlara son qoydu, ilk növbədə insanlarda gələcəyə, işləməyə, çalışmağa, torpaqlar uğrunda qətiyyətlə mübarizə aparmağa ümid yaratdı, inam doğurdu. Bağlanmış əsrin müqaviləsi, Horadiz qəsəbəsinin düşməndən azad edilməsi, torpaq islahatının həyata keçirilməsi, xarici ölkələrlə beynəlxalq əlaqələrin möhkəmləndirilməsi, sosial-iqtisadi, müdafiə sahələrində aparılan islahatlar Azərbaycana, xalqa yeni bir nəfəs verdi və bugünkü uğurlarımıza yol açdı.

Heydər Əliyev siyasətini çox uğurla, müdrikliklə həyata keçirən cənab İlham Əliyev bugünkü qələbələrimizin təməlində Ulu Öndərimizin böyük təşkilatçılığının, iradəsinin, qətiyyətinin, xalqa, vətənə, torpağa məhəbbət və sədaqətinin durduğunu dönədönə qeyd edir və haqlı olaraq dahi şəxsiyyətin xidmətlərinin heç vaxt unudulmayacağını bildirir. Heydər Əliyevin arzuları, istəkləri, xidmətləri milli olduğu qədər də bəşəridir. Unudulmaz rəhbər öz düşüncələri, baxışları, ideyaları ilə təkcə öz xalqına, azərbaycançılığa deyil, bütün xalqlara, millətlərə xidmət göstərmişdir. Çünki bu ideyaların mayasında öz millətinə, xalqına, milli-mənəvi dəyərlərə qayğı ilə yanaşı, digər xalqlara da, azadlığa, sülhə, müstəqilliyə, insanların firavan həyatına böyük inam, məhəbbət, qayğı və hörmət vardır. Cənab İlham Əliyev bu ideyaları, amalları yaşatdığı üçün xalqımız qalibdir, düşmənə qarşı mübarizdir, torpaqlarını azad etməyə, dövlətini yüksəltməyə, şöhrətləndirməyə qadirdir. Qurtuluş günü hər an yolumuzu işıqalandırır və Prezidentimiz işıqlandırılan bu yolla Heydər Əliyev ideyaları ruhunda xalqımızı daha xoşbəxt gələcəyə aparır”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***



*Ekspert mühüm məqamlara aydınlıq gətirdi*

# “Şagirdlərə külli miqdarda ev tapşırığı verilir”



“Hər kəsə məlumdur ki, ev tapşırıqları tədris proqramlarının səmərəli şəkildə mənimsənilməsi üçün vacib amillərdən biridir. Bu, həmişə belə olub: beş yüz il əvvəl də, min il əvvəl də, iki min il əvvəl də bu cür idi, bu gün də belədir, gələcəkdə də belə olacaq”. Bu sözləri S A-ya açıqlamasında təhsil eksperti Elşən Qafarov deyib.

O bildirib ki, bu məsələ ilə bağlı konkret hüquqi-normativ sənəd mövcuddur: ”Nazirlər Kabinetinin 3 avqust 2012-ci il tarixli, 171 nömrəli qərarı ilə təsdiq olunmuş “Ümumtəhsil məktəblərində sanitar-gigiyenik normalar”da bu barədə açıq şəkildə qeyd olunub. Həmin normativ sənədə əsasən, ümumtəhsil məktəblərinin I sinif şagirdlərinə birinci yarımildə ev tapşırığı verilmir. İkinci yarımildə isə ev tapşırıqlarının yerinə yetirilməsinə sərf olunan vaxt bir saatı keçməməlidir. II, III və IV siniflərdə ev tapşırıqlarının yerinə yetirilməsinə sərf olunan vaxt 1,5-2 saata qədər ola bilər. V və VI siniflər üçün bu müddət 2,5 saata qədər, VII, VIII və IX siniflər üçün 3 saata qədər, X və XI siniflərdə isə gündəlik ev tapşırıqlarına sərf olunan vaxt maksimum 4 saat ola bilər.

Burada söhbət ümumilikdə bütün fənlər üzrə ev tapşırıqlarına ayrılan vaxtdan gedir, yəni bu rəqəmlər tək bir fənn üçün nəzərdə tutulmayıb. Amma bizdə vəziyyət fərqlidir. Şagirdlərə bəzən həddindən artıq, hətta ”külli miqdarda” ev tapşırıqları verilir. Bu, elə birinci sinifdən, bəzən hətta məktəbəqədər hazırlıq mərhələsindən başlayaraq uşaqları ağır yüklə üz-üzə qoyur. Nəticədə uşaqlar həm fiziki, həm də zehni cəhətdən yüklənir, yorulur və ev tapşırıqlarını yerinə yetirməkdə çətinlik çəkirlər.

Bəs bunun çıxış yolu nədir?

Ən ideal yol şagirdlərin məktəbdə, müəllim nəzarəti altında ev tapşırıqlarına hazırlaşmasıdır. Təəssüf ki, hazırda bir çox valideynlər bu yükün öhdəsindən gəlmək üçün uşaqlarını repetitora yönləndirirlər, bəzən bu proses elə 5 yaşdan, birinci sinifdən başlayır. Təbii ki, bu sahədə ümumi nəzarət vacibdir. Bəs bu gün təhsil idarəetmə orqanları bu məsələyə nə dərəcədə nəzarət edir? Təəssüf ki, demək olar ki, heç bir şəkildə. Məktəb rəhbərləri də bu məsələyə ciddi yanaşmırlar. Nəticədə, şagirdin beyni yorulur, motivasiyası azalır, təhsilə marağı zəifləyir. Bəzən olur ki, uşaq azacıq nəfəs almaq, bir az dincəlmək, əylənmək istəyir. Amma bu da mümkün olmur. Sanki bir “stop” düyməsi basılır və uşaq dərhal öz tapşırıqları ilə üz-üzə qalır. Gün ərzində uşağın bütün vaxtı ev tapşırıqları, müəllimin verdiyi əlavə tapşırıqlar və valideynlərin yönləndirdiyi repetitor seansları ilə keçir. Bütün bu prosesin nəticəsində uşaq istismar olunur. Onun dincəlməyə, əylənməyə, oyun oynamağa, normal yuxu rejiminə vaxtı qalmır. Uşaqların həm psixoloji, həm də fiziki baxımdan bu qədər yüklənməsi birbaşa travmaya səbəb olur. Belə bir şəraitdə uşaq nəinki dərsi sevə bilmir, əksinə, təhsildən uzaqlaşmağa başlayır. Bu məsələyə ciddi nəzarət olunmalıdır. Məktəb rəhbərliyi bu məsələyə diqqətlə yanaşmalı, müəllimlər isə bilməlidirlər ki, bu sahədə qanunvericilik mövcuddur və orada ev tapşırıqlarına ayrılacaq maksimum vaxt konkret şəkildə göstərilib. Hər bir ev tapşırığı uşağın psixoloji və fiziki imkanları nəzərə alınmaqla verilməlidir. Təəssüf ki, bizdə çox zaman belə düşünülür: “Uşağa nə qədər çox tapşırıq versək, bir o qədər çox inkişaf edər.” Müəllim də eyni fikirdə olur, düşünür ki, daha çox ev tapşırığı verməklə daha yaxşı nəticə əldə edəcək. Amma bu, kökündən yanlış yanaşmadır. Əslində, çox deyil, məqsədyönlü və balanslı tapşırıq inkişaf gətirir”.

”Bu problemin məsuliyyəti yalnız müəllimlərin və ya məktəb rəhbərlərinin üzərində deyil, bütün cəmiyyətin, hər bir valideynin, hər bir təhsil işçisinin və hətta ictimaiyyətin ümumi məsuliyyətidir. Nəticədə, bizim uşaqlarımız, gələcəyimiz, travmalı, emosional gərginlik içində böyüyən, aqressiv, dözümsüz, yorğun və susdurulmuş bir nəsilə çevrilirlər. Uşaqlar gün ərzində davamlı olaraq nizam-intizam və tapşırıqlar arasında sıxılıb qalır. Onlar nə səsini çıxara, nə istirahət edə, nə də rahat nəfəs ala bilir. Bütün diqqətləri yalnız dərs oxumağa və ev tapşırıqlarını yerinə yetirməyə yönəldilib. Bu isə uşaq yox, sanki bir mexaniki varlıq yetişdirmək cəhdidir.

Beləcə, biz fərqli düşünə bilməyən, tənqidi yanaşması olmayan, yaradıcı deyil, yalnız göstəriş yerinə yetirməyə vərdiş etmiş gənclər yetişdiririk. Və artıq bunun acı nəticələrini gənclərimizin davranışlarında, münasibətlərində və psixoloji durumlarında açıq şəkildə görməkdəyik” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Azərbaycan turizm mərkəzinə çevrilib

***Azərbaycanda turizmin müxtəlif növləri - mədəni, sağlamlıq, idman, çimərlik, ekoloji və s. mövcuddur. Bütün bunların olması xarici turistlərin ölkəmizə cəlb olunmasında əsas amillərdir. Bu sərvətlərdən doğru və düzgün istifadə turist ölkəsi olaraq Azərbaycanın dünyada tanıdılmasında mühüm əhəmiyyət kəsb edir. Xüsusi olaraq vurğulamalıyıq ki, Azərbaycanın dinamik inkişafı, ölkəmizdəki əsaslı dəyişikliklər, respublikamızın siyasi-iqtisadi və mədəni mərkəz, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi çıxış etməsi ölkəmizin dünyada olan imicini daha da yüksəldib.***

Bütün sahələrdə həyata keçirilən layihələr Azərbaycanın hər bir bölgəsində turizm üçün geniş imkanlar açıb. Azərbaycanın hər bir bölgəsi turizm üçün yararlıdır.

Bu günlərdə Azərbaycanın BMT Turizmin İcraiyyə Şurasına üzv seçilməsi də təsadüfi deyil. Belə ki, BMT Turizmin Avropa Regional Komissiyasının iyunun 5-6-da Bakıda keçirilən 71-ci iclasında Azərbaycan 2025-2029-cu illər üzrə təşkilatın İcraiyyə Şurasına üzv seçilib. Avropa Regional Komissiyası üzrə İcraiyyə Şurasının üzvlüyünə ayrılmış 5 yer üzrə 9 ölkə arasından Azərbaycanla yanaşı, Sloveniya, Fransa, Xorvatiya və Yunanıstanın 2025-2029-cu illər üçün namizədlikləri təsdiq olunub. Qeyd edək ki, Azərbaycan 2013-2017-ci, 2017-2021-ci və 2023-2025-ci illərdə təşkilatın İcraiyyə Şurasına üzv olub, 2017-ci ildə isə İcraiyyə Şurasına sədr seçilib. Prezident İlham Əliyevin Azərbaycanda turizmin inkişafına daim diqqət göstərməsinin nəticəsidir ki, Azərbaycan Avropa ilə turizm sahəsində də körpü rolunu oynayan mərkəzə çevrilib.2024-cü il ərzində ölkəmizə gələn xarici ziyarətçilərin sayının 2023-cü illə müqayisədə 26 faiz artması və turist xərcləmələrinin isə 5.1 milyard dollara çatması ölkəmizə olan marağın göstəricisidir.

### TURİZM SAHƏSİ DÖVLƏT SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİNDƏN BİRİNƏ ÇEVRİLDİ

Təbiəti, təbii sərvətləri, iqlimi, yeraltı və yerüstü sərvətləri ilə diqqətdə olan Azərbaycanda turizm sahəsində əldə olunan nailiyyətlər, həyata keçirilən dövlət proqramları, layihələr böyük uğurlara səbəb olub. Yaxın tarixi keçmişimizə nəzər salsaq görərik ki, müstəqillik qazandığımız ilk illərdə Azərbaycanda fəaliyyət göstərən ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olunmuşdur. Belə ki, həmin illərdə müharibə və sərhədlərdəki qeyri-stabil vəziyyət turizm sistemində bir sıra problemlərin yaranması ilə nəticələndi. Ötən əsrin 90-cı illərin sonunda turizmin inkişaf tendensiyası ölkənin ali qanunvericilik aktlarında əksini tapdı. Belə ki, Azərbaycanda turizm sahəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Ölkənin mövcud turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması və s. sahələrdə məqsədyönlü tədbirlər planı həyata keçirilməyə başlandı. 1999-cu ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzalandı. Bu qanun Azərbaycanda turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönələn dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi.

### TURİZMİN İNKİŞAFININ YENİ MƏRHƏLƏSİNƏ TƏKAN

Ümummilli Lider Heydər Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2002-2005-ci illər üçün" Dövlət Proqramının tələblərinə uyğun olaraq, turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikildi, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətləri cəlb olundu. Ulu Öndər Heydər Əliyevin məqsədyönlü fəaliyyətini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin bütün sahələrə olduğu kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsi olaraq uğurlu nəticələr əldə edildi. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, turizmin inkişafının yeni mərhələsinə təkan verəcək "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair



## *Azərbaycan BMT Turizmin İcraiyyə Şurasına üzv seçilib*

2008-2016-cı illər üçün Dövlət Proqramı" hazırlandı. Bu müddət ərzində nümayiş obyekti kimi istifadə olunması məqsədəuyğun hesab edilən bir sıra tarix-mədəniyyət abidələri bərpa edildi və turistlərin istifadəsinə verildi. Bütün görülən işlərlə yanaşı olaraq, ölkənin turizm potensialının beynəlxalq aləmdə tanınması məqsədilə Almaniya və Avstriya turizm şirkətləri və kütləvi informasiya vasitələrindən ibarət nümayəndələr üçün info-turlar təşkil edildi. Azərbaycanda ilk dəfə olaraq Turizm Filmləri Festivalı keçirildi. Turizm sahəsində əməkdaşlıq haqqında Hökumətlərarası Sazişlər çərçivəsində müəyyən işlər görüldü.

Respublikamızın turizm potensialını əks etdirən reklamlar xarici ölkələrdə nəşr edilən turizm xarakterli jurnallarda yerləşdirilməyə başlanıldı. Belə ki, "ABTA", "Travel İQ", "Faints and Projects", "TTG Russia", "Travel Unravelled", "Qde otdıxat", "Otdıx v Rossii", "World Travel Guide" və başqa mətbuatlarda Azərbaycan turizm potensialına diqqət ayrıldı. Hər il ardıcıl olaraq "AİTF" Beynəlxalq Turizm Sərgisi paytaxtımızda keçirildi. Bu sərgidə iştirak edən xarici ölkələrin turizm şirkətlərinin sayı ildən-ilə artmağa başladı.

"Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsinə və turizm sahəsinin daha da inkişaf etdirilməsinə müsbət təsirini göstərmiş oldu. Müasir dövrümüzdə ölkədə yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsi təmin edilir. Turizm fəaliyyəti üçün əlverişli şəraitin mövcudluğu, turizm ehtiyatları, ölkənin zəngin coğrafi landşafta malik olması, xalqımızın qədim mədəni-tarixi irsi, eləcə də onun fauna və florası bu sahənin sürətli inkişafına yol açan əsas amillərdir.

### 2026-CI İLDƏ TURİZM XƏRCLƏMƏLƏRİ 11,2 MİLYARD MANATA ÇATACAQ

Prezident İlham Əliyev tərəfindən turizmə göstərilən diqqətin nəticəsidir ki, bu gün Azərbaycan perspektivli turizm ölkəsinə çevirib. Son illər ərzində ölkəmizdə mehmanxana və mehmanxana tipli obyektlər tikilərək istifadəyə verilib. Azərbaycanın turizm coğrafiyası genişlənib. Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir. Gündən-günə inkişaf edən respublikanın iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması istiqamətində görülən işlər davamlı olaraq həyata keçirilir. Qədim tarixi abidələri, coğrafi şəraiti baxımından diqqətdə olan Azərbaycanın bir çox məkanlarına turistlərin axını davam etməkdədir. Ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması, turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi istiqamətində ardıcıl işlər görülməkdədir.

Odlar diyarı kimi səciyyələndirilən ölkəmizdə bu sahənin tərəqqisi üçün geniş potensial vardır. Təsadüfi deyildir ki, dünyada olan 11 iqlim qurşağından 9-u ölkəmizdədir. Ölkəmizin tarixi mədəniyyət abidələri var. Azərbaycanın ən məşhur turistik əhəmiyyətli Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, Qubanın Xınalıq kəndi, Qəbələ üzüm bağları, Talış dağları və s. turistlər üçün çox maraqlı məkanlardır. Ölkəmizdə mövcud olan qoruqları ziyarət edənlərin sayında son illərdə artım müşahidə edilir. Bu gün Azərbaycanda 28 tarixi qoruq var ki, onların 14-ü tarixi-mədəniyyət qoruğu, 8-i tarixi-memarlıq, 2-i tarixi-bədii qoruqdur. Təkcə Yanardağ həm tarixi-mədəniyyət, həm də təbiət qoruğu olaraq fəaliyyət göstərir. Qobustan Dövlət tarix-bədii qoruğu, Nardaran tarix-mədəniyyət qoruğu, Keşikçidağ Dövlət Tarix-Mədəniyyət Qoruğu, Lahıc Tarix-Mədəniyyət Qoruğu, "Çıraqqala" Tarixi-Memarlıq Qoruğu, "Şabran şəhəri" Tarixi Qoruğu, "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu və s. dövlət səviyyəsində qorunur və mühafizə olunur. Qoruqların fəaliyyəti müasir tələblər səviyyəsində təşkil edilir. Son illərdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu, "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu və "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu yaradılıb. "Qobustan" Milli Tarix-Bədii Qoruğu ərazisində qoruğun yeni inzibati binası tikilmiş və müasir texnologiyalarla təchiz edilmiş ekspozisiyası yaradılmışdır. Əlbəttə ki, bu gün abidələrin qorunması təmin edilmiş, əraziləri abadlaşdırılmış və yeni turizm marşrutları müəyyən olunmuşdur. Bu qoruqlar müasir tələblərə cavab verən turizm obyektlərinə çevrilməkdədir.

### DÜNYANIN TANINMIŞ OTEL ŞİRKƏTLƏRİ AZƏRBAYCANDA

Əlbəttə ki, Azərbaycanın bölgənin lider dövlətinə çevrilməsi dünyanın ən məşhur firma və şirkətlərinin, brendlərinin ölkəmizə diqqətinin artmasına səbəb olub. İqtisadi inkişaf nəticəsində turizm sektoruna da xüsusi dövlət qayğısı, o cümlədən sahibkarlıq fəaliyyətinə əlverişli mühitin yaradılması dünyanın tanınmış otel şirkətlərinin də ölkəmizə axınını gücləndirib. Əgər bu gün "Four Seasons", "Fairmont", "Mariott", "Hilton", "Kempinski", "Jumeirah", "Sheraton", "Hyatt" kimi dünyanın səkkiz aparıcı otel brendi Bakıdadırsa, artıq bu ölkəmizin inkişafının bir göstəricisidir. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur. Bakıda beşulduzlu otellərin sayı durmadan artır. Beşulduzlu otellərdə rahat və gözəl yerləşmə, yüksək xidmət və cazibəli interyer diqqəti cəlb edir. Təbii ki, belə hotellərin inşası Azərbaycana gələn turistlərin marağının artmasında əhəmiyyətli rol oynayır. Bu gün nəinki paytaxt Bakıda, eləcə də Azərbaycanın bir çox yerlərində ən müasir səviyyədə otellər tikilib. Şimal-qərb zonasında, Şamaxıda, Qəbələdə, Şəkidə, Qubada və başqa məkanlarda müasir tələblərə cavab verən otellər inşa edilib. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da diqqətin nəticəsidir. Şahdağ qış-yay turizm kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirmiş oldu. Dünyadakı bu tipli komplekslərdən müasirliyi və universallığı ilə fərqlənən komplek Şahdağ qış-yay turizm kompleksi müasir tələblərə cavab verir.

Əlbəttə ki, 30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımızın da turizm potensialı genişdir. 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin etmiş oldu. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə görülən işlər bu ərazilərin turist məkanına çevriləcəyini təsdiqləyir. Əlbəttə ki, görülən işlər deməyə əsas verir ki, işğaldan azad olunan ərazilərin turizm potensialı böyükdür. Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və s. turistlərin diqqətini cəlb edəcəkdir. Heç şübhəsiz ki, ilk insan məskənlərindən olmuş məşhur Azıx mağarası, Qaraköpək, Üzərliktəpə kurqanları, Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Mir Möhsün Nəvvabın ev muzeyi və s. çoxsaylı turistlərin ziyarətgahına çevriləcək. Öz təbii sərvətləri ilə seçilən torpaqlarımızın səfalı və müalicəvi əhəmiyyət daşıyan yerləri, flora və faunasının başqa bir ab-havası var. Kəlbəcər rayonu ərazisindəki İstisu mineral suları, Şuşanın Cıdır düzü və saymaqla bitib-tükənməyən nümunələri böyük maraq doğurur. Bu, onu deməyə əsas verir ki, yaxın zamanlarda Azərbaycanın turizm məkanlarının coğrafiyası daha da genişlənəcəkdir.

Təbii ki, hər rayonun özünəməxsus turizm potensialı var. Dövlət başçısı çıxışlarının birində vurğuladığı kimi, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

TƏHLİL

# ABŞ-da vətəndaş müharibəsi bərpa olunur

***Tarixi gerçəklik ondan ibarətdir ki, Amerika Birləşmiş Ştatları yarandığı gündən qeyri-sabit bölgə olaraq tanınıb. Çünki ölkənin əsas sahibləri olan zəncilər və hindular gəlmələr hesab etdikləri ingilis dilli əhalini qəbul etmək istəmirlər. Bu səbəbdən də tərəflər arasında qarşıdurmalar səngimək bilmir. Bəzi hallarda qarşıdurmalar daha gərgin və sərt xarakter alır. Son günlər Los-Anceles, Texas, Kaliforniya və digər ərazilərdə baş verən vətəndaş qarşıdurmaları son illərin ən amansız qarşıdurmaları hesab olunur. Ölkə prezidenti D.Trampın qeyri-qanuni mühacirləri deportasiya etməsinə qarşı etirazlar bir neçə gündür ki, davam edir.***




Hesab olunur ki, iğtişaşların əsas səbəbi heç də mühacirləri deportasiya edilməsi ilə bağlı deyil. Başlıca hədəf D.Trampın ardıcıl ölkənin və dünyanın əsas aparıcı şəxslərinin maraqlarına toxunan siyasət aparması və qərarlar qəbul etməsidir. Ölkənin bir sıra ərazilərində qəzəbli insanlar avtomobilləri yandırır, polisə daş atır, mağazaları qarət edir. Məsələn, talançılar “Mələklər şəhəri”nin mərkəzində yerləşən “Apple” mağazasını tamamilə dağıdıblar. Los-Ancelesdəki etiraz aksiyalarının genişlənməsindən qorxuya düşən Tramp hakimiyyəti Kaliforniya Milli Qvardiyasını Los-Ancelesə yeridib. Tramp Kaliforniyaya 2000 nəfərlik Milli Qvardiya və 700 dəniz piyadası göndərmişdi. Bu addım ABŞ Göç İdarəsi (ICE) tərəfindən qeyri-qanuni miqrantlara qarşı reydlər nəticəsində baş verən kütləvi iğtişaşlardan sonra atılıb. Los-Ancelesdəki etirazçılara qarşı hərbçilər gözyaşardıcı qaz və səskəsici qumbaralardan istifadə ediblər.






D.Tramp bu əməliyyatı ”əla yerinə yetirilmiş iş” adlandıraraq bildirib ki, əgər hərbçilər göndərilməsəydi, şəhər ”külə dönərdi”. O, Kaliforniya və Los-Anceles rəhbərliyini iğtişaşlara qarşı kifayət qədər tədbir görməməkdə günahlandırıb və qubernator Nyusomun ”son dərəcə səriştəsiz” olduğunu deyərək, onun həbs olunmasını dəstəklədiyini bildirib. Kaliforniya qubernatoru isə Trampın bu bəyanatını ”avtoritarizmə doğru açıq addım” adlandırıb.

## D.Tramp qubernatorun müraciəti olmadan ştatın Milli Qvardiyasını Los-Ancelesə göndərib

The New York Times qəzetinin yazdığına görə, Tramp bu qərarı Kaliforniya qubernatoru Kevin Nyusomun razılığı olmadan verib. Bu, ABŞ tarixində 1965-ci ildən bəri ilk dəfədir ki, prezident qubernatorun müraciəti olmadan ştatın Milli Qvardiyasını işə cəlb edir. Ağ Evin aparat rəhbərinin müavini Stiven Miller Kaliforniyada keçirilən nümayişləri üsyan adlandırıb və Los-Anceles polis idarəsinin rəhbərinin ”miqrantların kütləvi deportasiyalarında iştirak etməyəcəkləri” bəyanatını tənqid edib. Tramp isə ”Truth Social” platformasında bildirib ki, əgər Kaliforniya qubernatoru və Los-Anceles meri vəziyyəti nəzarət altına ala bilməsə, federal hökumət ”üsyançılar və talançılarla mübarizə aparmaq üçün müdaxilə etməyə məcbur qalacaq”.

Kaliforniya qubernator Gevin Nyusom ABŞ Prezidenti Donald Tramp, Pentaqon və müdafiə naziri Pit Hegsetə qarşı məhkəməyə müraciət edib. Səbəb isə Trampın Los-Ancelesə Milli Qvardiya qoşunlarını yeritmək qərarıdır. San-Fransiskodakı Federal Dairə Məhkəməsinə təqdim edilən iddia ərizəsində bildirilir ki, Tramp bu qərarı ilə federal qanunvericiliyi və Konstitusiyanı pozub. The New York Times qəzeti Kaliforniya qubernator Gevin Nyusoma istinadən qeyd edir ki, D.Tramp dəfələrlə fövqəladə səlahiyyətlərindən istifadə edərək icra hakimiyyətinin qanuni sərhədlərini aşmağa çalışıb: “ 7 iyun şənbə günü o, yerli hakimiyyət orqanlarının nəzarətində olan etiraz aksiyasından istifadə edərək, daha bir görünməmiş səlahiyyət zəbtinə cəhd etdi. Bu dəfə Kaliforniya ştatının suverenliyi bahasına və Milli Qvardiyanın ali baş komandanı kimi qubernatorun səlahiyyətlərinə qarşı çıxış edib. Bu səbəbdən ştat məhkəmədən Milli Qvardiyanın yerləşdirilməsi ilə bağlı qərarın ləğvini və bu qüvvələr üzərində nəzarətin qubernatora qaytarılmasını tələb edir.

Kaliforniya baş prokuroru Rob Bonta bildirib ki, Tramp Milli Qvardiyanın göndərilməsi üçün yalnız bir dəfə – 1970-ci ildə prezident Riçard Nikson tərəfindən poçt işçilərinin tətili zamanı poçtun çatdırılması məqsədilə istifadə olunmuş bir qanundan istifadə edib. Bundan başqa, bu, 1965-ci ildən – prezident Lindon Consonun Aabama ştatında vətəndaş hüquqları yürüşünü qorumaq üçün qoşun yeritməsindən sonra, qubernatorun razılığı olmadan bu qanunun tətbiq olunduğu ilk haldır.

## Bütün bunlar “müharibə” xarakteri alır

İyunun 13-nə olan məlumatlara görə, hazırda Kaliforniyanın Los-Anceles şəhərində şiddətli etirazlar davam edir. Qarşıdurmlar nəticəsində onlarla insan xəsarət alıb, yüzlərlə etirazçı isə polis tərəfindən həbs olunub. Baş verən qarşıdurmaları Los-Anceles meri Karen Bass “müharibə” xarakteri hesab edir. Mer komendant saatının mərkəzi bölgələrə tətbiq edilməli olduğunu vurğulayıb.

Karen Bassın sözlərinə görə, komendant saatı bütün şəhərə şamil edilməyəcək. Onun fikrincə, bu, hələ lazım deyil. Eyni zamanda, mer son qərarın hələ verilmədiyini söyləyib.

Maraqlıdır ki, bir qədər əvvəl Los Anceles meri, demokrat Karen Bass şəhərdəki etiraz problemlərində yalnız Donald Trampın günahkar olduğunu israr edir. Bildirirdi ki, Tramp qubernatorla razılaşdırmadan şəhərə Milli Qvardiya qoşunlarını göndərib. İğtişaşların genişlənməsindən sonra mer şəhərdə komendant saatı tətbiq etməyə məcbur olub. Komendant saatı tətbiq olunana qədər artıq 23 mağaza talan edilmiş, evlərin şüşələri sındırılmış, onlarla polis yaralanmışdır. Məlumatlra görə, etirazlar artıq San-Fransiskoya yayılıb (orada 60 nəfər həbs edilib), Kolorado ştatının paytaxtı Denverdə və Texas ştatının Ostində küçələr bağlanmalı olub. Ənənəvi olaraq güclü “polis iştirakı” olan Vaşinqtonda belə etiraz yürüşləri keçirildi - indiyədək dinc şəraitdə. Hər yerdə etirazlar İmmiqrasiya və Gömrük Mühafizəsi (ICE) agentliyinin məsuliyyətə cəlb edilməsi şüarı altında keçirilir. Etirazçılar ICE-ni ölkədə qeyri-qanuni mühacirlərin əsassız həbslərində və deportasiyalarında ittiham edirlər. Diqqətçəkən məqam ondan ibarətdir ki, polisə məharətlə hücum edən, maşınları yandıran və lazım gəldikdə mütəşəkkil şəkildə geri çəkilən yaxşı təlim keçmiş döyüşçülərdən danışır. Trampın özü Ağ Evdə jurnalistlərin suallarını cavablandırarkən bildirib ki, Los-Ancelesdə idealist hüquq müdafiəçiləri ilə açıq şəkildə mübarizə aparmır. ”Orada problem yaradan uşaqlar peşəkar təşviqatçılardır, iğtişaşçılardır və ümumiyyətlə pis insanlardır. Onların yeri həbsxanadır”, - ABŞ prezidenti bildirib.

## İğtişaşlar ABŞ-ın varlığına son qoya bilərmi?

Bəzi siyasi analitiklər bir suala cavab axtarırlar, baş verən qarşıdurmlara kimlərin maraqlarına xidmət edir? ABŞ Demokrat Partiyası, eləcə də onun Avropa İttifaqındakı qlobalist müttəfiqləri əsas faydalananın Tramp olduğunu iddia edirlər. Guya bu yolla qanunun aliliyinə xələl gətirir və məsələni Amerikada şəxsi hakimiyyətinin rejiminin yaradılmasına aparır.

Elit Fransa Milli İdarəetmə Məktəbinin politologiya müəllimi Gilles Gressani, Fransız Figaro-da keçirilən müzakirədə ”Tramp özünü inqilabçı kimi aparır” deyə bildirib: “Hər səhər insanlar oyanır və Trampın qəhrəmancasına öhdəsindən gəldiyi yeni böhran haqqında öyrənirlər. Ya tarifləri qaldırır, ya da dayandırır. İlon Maska təcili səlahiyyətlər verir və ya onunla mübahisə edir. O, Kaliforniyaya qoşun göndərir, ya da başqa bir şey. Tramp dövləti metal parçası kimi sındırır: onu əvvəlcə bir tərəfə, sonra digər tərəfə bükür, qırılana qədər”. Bununla belə, ABŞ-da insanlar və mühafizəkar siyasi dairələr arasında başqa bir nəzəriyyə məşhurdur: biz qlobalist dairələrdən ilham alan və pul ödəyən küçə etirazçılarının hakimiyyəti zorakılığa təhrik etdiyi bir “rəngli inqilab”ın şahidi oluruq. Polis nəzarətində olan qaradərili təkrar cinayətkar Corc Floyd Qaradərililərin Həyatı Önəmlidir (BLM) hərəkatı tərəfindən ölkə daxilində iğtişaşlara səbəb oldu. Çünki bu nəzəriyyənin doğru olma ehtimalı olduğundan daha çoxdur.

ABŞ-da baş verən qarşıdurmalar dünyada böyük diqqətlə və maraqla izlənilir. Əksər analitiklər D.Trampın ölkənin hər yerinə yayılmaqda olan iğtişaşların D.Trampın hakimiyyətdən uzaqlaşdırılması ilə nəticələnə biləcəyini ehtimal edirlər. Fikirlər onunla əsaslanır ki, bir sıra dünya gücləri, eləcə də ABŞ-da böyük maliyyə imkanlarına sajib olan iş adamları D.Trampın hakimiyyətdən uzaqlaşdırılmasını arzu edirlər. Artıq bir sıra ölkələr və beynəlxalq təşkilatlar, o cümlədən, Avropa Birliyi Şurası, Avropa Komissiyası, Kanada, Çexiya, İsveç, Norveç, İrlandiya, Yeni Zellandiya, Türkiyə, Çin, Fransa, Almaniya, Böyük Britaniya, Rusiya, Avstraliya hökumət və dövlət başçıları ABŞ-da baş verən qarşıdurmalardan narahatlıqlarını ifadə ediblər.

***İLHAM ƏLİYEV***



# Biotexnologiya və süni intellektin birləşməsi

***2024-cü ilin aprelində dünyada ilk dəfə təhlükəsiz şəkildə dünyaya gələn əkiz qızların embrion genomlarında dəyişiklik edən Çinli genetik He Jiankui sərbəst buraxıldı və araşdırmalarını davam etdirdi. Xatırladaq ki, 2019-cu ilin sonunda o, insan genomunu qeyri-qanuni redaktə etdiyinə görə üç il həbs və cərimə cəzasına məhkum edilmişdi. Yaponiyanın "Mainichi Shimbun" qəzetinə müsahibəsində Jiankui tibbi məqsədlər üçün insan embrionlarının genomunun redaktə edilməsi üzrə təcrübələrə yenidən başladığını bildirib.***



Əlbəttə, bu, böyük və son dərəcə həssas mövzudur - Homo sapiens genomu ilə manipulyasiyalar. Məsələn, genetik alim, biologiya elmləri doktoru, professor Sergey Kiselev ötən ilin sentyabrında knife.media onlayn nəşrinə müsahibəsində demişdi: "Əlbəttə, etika komitələri mövcud olmalı və işləməlidirlər, lakin onlar obyektiv işləməlidirlər. İnsanın klonlaşdırılması həm də sintetik biologiyadır, yalnız bütün orqanizm səviyyəsində. Onları qeyd-şərtsiz hesab etmək mümkün deyil, bütün klonlamalara ehtiyac var və onlara qadağa qoyulmalıdır. İnsanın klonlanmasına nəzarət etmək də qadağandır, buna görə də heç kim bunu qanuni şəkildə etmir, amma hər şey qanuni şəkildə həyata keçirilir, lakin ciddi nəzarət altındadır. Görünür, sintetik biologiyanın inkişafı məhz bu ssenari üzrə gedir.

2025-ci ilin yanvarında bildirildi ki, Avropada MiniLife layihəsinə start verilib, onun məqsədi laboratoriya şəraitində sıfırdan sadə həyat formaları yaratmaqdır. MiniLife büdcəsi 13 milyon avrodur, Avropa Tədqiqat Şurası tərəfindən maliyyələşdirilir və müxtəlif universitetlərdən bioloq və kimyaçıları bir araya gətirir. Ümumiyyətlə, məbləğ belə iddialı layihə üçün o qədər də böyük deyil: tədqiqatçılar altı il ərzində böyüyə, bölünə və "Darvinin təkamülü"nü nümayiş etdirə bilən metabolik aktiv hüceyrələr yaratmağı planlaşdırırlar. MiniLife layihəsi təkamül zamanı əmələ gələn molekullardan istifadə etmədən həyatı, belə demək mümkünsə, "sıfırdan" yaratmağı nəzərdə tutur – minimalist həyat modeli. Bu, forma reaksiyasına - ən sadə kimyəvi birləşmənin formaldehidin mürəkkəb şəkər molekullarına çevrilməsi prosesinə əsaslanır. Belə kimyəvi (lakin hələ bioloji deyil!) sistemlər Darvinin "uyğunlaşma qabiliyyətinə" bənzər davranış nümayiş etdirir. Məsələn, bəzi damcılar digərlərindən daha sürətli böyüyür və daha aktiv bölünür. Parisdəki Ali Fizika və Kimya Məktəbindən tədqiqatçı Andrew Griffiths hesab edir ki, "ibtidai Darvinin təkamülünün nümayişi altı ildən sonra mümkündür".

İstənilən halda sintetik biologiyanı dayandırmaq olmaz. Avropalılar hələ də prototipe yaratmaq üçün təcrübələrə başlasalar da, Yaşıl Qitənin alimləri artıq sıfırdan eukaryotik hüceyrələri (yeni nüvəli hüceyrələr) yaratmışlar. Eukariotlara bütün çoxhüceyrəli orqanizmlər və bəzi təkhüceyrəli orqanizmlər daxildir. Bununla belə, hələlik bunlar sadə orqanizmin hüceyrələridir – çörək mayası, Saccharomyces cerevisiae növünün birhüceyrəli göbələkləri (buna görə də onların layihəsinin adı – Sc 2.0).

MiniLife layihəsinin başlanmasının elanından bir ay keçməmiş, 20 yanvar 2025-ci ildə Nature Communications jurnalı Macquarie Universitetinin (Avstraliya) bir qrup tədqiqatçısının məqaləsini dərc etmişdir: "SynXVI a 903 kb sintetik Saccharomyces chromsome. Təxminən 10 il ərzində bioloqlar bu göbələk xromosomunun genetik materialını xromosomla sintez etdilər. Xromosom sinXVI 903 kb sonuncu, 16-cı, sintez edilmiş maya xromosomu idi. Genomun tam dəsti.



Üstəlik, təbiətdə mövcud olmayan çoxluq. Çörək mayasında 16 xromosom və 12,5 milyon əsas cüt var. Bu genomu sintez edərkən, o, hərtərəfli təmizləndi - DNT-nin "qırıq" və zərərli hissələrinin təxminən 8% -i çıxarıldı.

Şərh: "Bu, daha sadə bakterial orqanizmlərlə işləməkdə əldə edilən uğurlardan sonra tam sintetik eukaryotik genomun yaradılmasının ilk hadisəsidir. Bu, alimlərin daha mürəkkəb orqanizmləri, məsələn, qida bitkilərini sintez edə bildiyini sübut edir".

Macquarie Universitetindən molekulyar mikrobioloq Sakki Pretorius vurğulayır: "Bu, sintetik biologiyada əhəmiyyətli bir məqamdır. Bu, uzun illərdir sintetik biologiya tədqiqatçılarını məşğul edən tapmacanın son hissəsidir". Həqiqətən də, tam sintez edilmiş genomu olan Saccharomyces cerevisiae mayasının yaradılmasına yönəlmiş Sc 2.0 layihəsi biologiya və biotexnologiya üçün əsaslı şəkildə yeni perspektivlər açır. Tədqiqatçıların ümid etdiyi kimi, bu, canlı hüceyrədə tənzimləmə mexanizmlərinin işləməsini və xromosomların struktur təşkilinin hüceyrənin həyati fəaliyyətinə təsirini ətraflı öyrənməyə imkan verəcək. Bu arada, ekspertlər Sc 2.0 texnologiyasının potensial tətbiq sahələrini, praktik tətbiqini sadalayırlar.

İlk növbədə, yeni dərmanların inkişafı. Hüceyrə metabolizmasını redaktə etmək bacarığı bizə antikorlar, peyvəndlər və yeni nəsil antibiotiklər daxil olmaqla, terapevtik əhəmiyyətli maddələr istehsal edən mikroorqanizmlər yaratmağa imkan verir. Etanol və digər fermentasiya məhsullarının sənaye istehsalının təkmilləşdirilməsi - enzimatik yolların optimallaşdırılması sənaye proseslərinin səmərəliliyinin artırılmasına kömək edir. Ekoloji tətbiqlər – ətraf mühiti çirklənmədən təmizləmək, zəhərli birləşmələri parçalamaq və tullantıları təkrar emal etmək üçün süni genomlu mikroorqanizmlərdən istifadə.

Bundan əlavə, yuxarıda qeyd edildiyi kimi, bioloqlar təkamül proseslərini modelləşdirmək üçün yeni eksperimental metoda malikdirlər - genetik arxitekturadakı dəyişikliklərin canlı orqanizmlərin, o cümlədən Homo sapienslərin adaptiv potensialına təsirini öyrənirlər. Sonuncu, yeri gəlmişkən, insanın dünyanı dərk etməsinin ontoloji əsasları baxımından ən mühüm nəticədir. Bununla belə, sintetik bioloji orqanizmlərin yaradılması həyatın təbiəti və insanın bu prosesə müdaxilə etmək hüququ ilə bağlı fundamental fəlsəfi, etik və dini suallar doğurur. Bir çox dinlər və mədəniyyətlər həyatı müqəddəs və toxunulmaz hesab edərək, yeni həyat formalarının yaradılmasının ali güclərin səlahiyyətində qalmalı olduğuna inanırlar. Müasir texnologiya, belə çıxır ki, artıq bizə verilmiş xassələrə malik orqanizmlər yaratmağa imkan verir ki, bu da təbiətə icazə verilən müdaxilənin hədləri haqqında mübahisələrə səbəb olur.

Məsələn, bizim növümüz hiss olunmaz şəkildə dəyişirsə, tamamilə fərqli və ya başqa növlərə çevrilirsə, heç bir şey bəşər övladının gələcəyinin olmamasına mane olmur. Bu mənada insan heç vaxt ölməyəcək, çünki onun təkamül prosesində onu Neohomoya və ya bir növ iyrənc titrəyişə çevirən kiçik dəyişikliklər zəncirindəki son mərhələyə uyğun gələn heç bir taksonomik nöqtə ola bilməz. Və nə qədər "sintetik bioloqlar" öz tədqiqatlarını universal praqmatika ilə kamuflyaj etsələr də, son məqsəd - insanın klonlaşdırılması və ya daha yaxşısı – Homo sapiens (Neohomo) növünün spesifik nümayəndələrinin sıfırdan, sözün əsl mənasında molekullar və atomlar vasitəsilə yaradılması artıq tamamilə aydın görünür. O qədər də fantastik ssenari deyil. Kainatda artıq mövcud olan və ya potensial olaraq mövcud ola bilənlər istisna olmaqla, insan, sadəcə olaraq, yeni bir şey düşünmək qabiliyyətinə malik deyil.

### Həyat və ölüm məsələsi

1966-cı ildə "Leninin əks etdirmə nəzəriyyəsi və müasir elm" toplusunda "Maşın və insan, kibernetika və fəlsəfə" məqaləsi dərc edilmişdir. Onun müəllifləri – üç sovet alimi, filosofu və psixoloqu Evald İlyenkov, Anatoli Arsenyev və Vasili Davıdov "İnsanın kibernetik modeli" yaratmaq üçün kibernetçilərin həvəsini soyutmağa çalışırlar.

Əvvəla, onlar antropomorfizmin "günahından" - maşın və insanı kibernetik sistemlər kimi müəyyən etməkdən heç vaxt yorulmayıblar. Yeri gəlmişkən, Paracelsus bir neçə növ homunculi qeyd edib. Xüsusilə qeyd edib ki, öz dövründə sehrbazlar və okkultistlər mumdan, torpaqdan və metallardan (androidlərdən) homunculi düzəldirdilər. "Maşın və insan..." müəlliflərinin istinad etdiyi akademik Sergey Lvoviç Sobolevin (1964) kibernetik paradiqması, şübhəsiz ki, sonuncuya uyğun gəlir: "Məlum olduğu kimi, kibernetikada maşın müəyyən məqsədə aparan hərəkətləri yerinə yetirməyə qadir sistemdir. Bu o deməkdir ki, canlı varlıqlar, xüsusən də bu mənada insan maşındır".

Bununla bağlı filosof Evald İlyenkov adını çəkməməyi üstün tutduğu başqa bir akademikdən sitat gətirir: "İnsan" modelinin yaradılması hədd-hüdud deyil. Əgər insan beynini artırmaq mümkün deyilsə, o zaman texniki sistemlərin genişləndirilməsi imkanları sonsuzdur. Ona görə də "Supermen" modelinin yaradıla biləcəyini təsəvvür etmək olar, çünki onun kollektiv iradəsi nəticəsində zəkada yarana bilər. Fərddən qaçan çox mürəkkəb hadisələrin mənası onun üçün əlçatan olacaq, yəqin ki, bir çox şəxsiyyətlərin, bütöv bir cəmiyyətin modellərini təcəssüm etdirəcək...

NÖVBƏTİ FAZA

Ardı Səh. 14



# Biotexnologiya və süni intellektin birləşməsi

Əvvəli-Səh-13

Belə kiberşovinizm filosoflara heç bir şəkildə yaraşmazdı. İlyenkov vurğulayır: “Əgər biz adı yox, həm keçmişə, həm indiyə, həm də bütün gələcək maşınlara aid olan “maşın” elmi konsepsiyasını nəzərdə tuturuqsa, o zaman elmdə belə bir şey var”. - Maşınlar ”insan iradəsinin orqanlarına çevrilmiş təbii materialdır və onun təbiətdə aktiv təzahürüdür. Onlar insan beyninin insan əli ilə yaradılan orqanlarıdır, biliyin obyektivləşmiş gücüdür” (Marks). Bu, kibernetikdən fərqli olaraq, “maşın” anlayışının universal, elmi və nəzəri tərifidir. Real maşınların bütün keçmişi, indiki və gələcək müxtəlifliyi heç bir insident olmadan onun altına daxildir. İnsan isə bura daxil deyil”.

Ümumiyyətlə, Marksın “maşın” tərifi sintetik bioloqların bu gün sintez etməyi öyrəndikləri ilə təəccüblü dəqiqliklə uyğun gəlir. Bundan əlavə, üç sovet filosofu bu tərifin “həm keçmişə, həm indiyə, həm də bütün gələcək maşınlara” aid olduğunu vurğulayır. Bu baxımdan Saccharomyces cerevisiae növünün birhüceyrəli maya göbələyi eyni mexanizmdir, yalnız biolojidir.

Yeri gəlmişkən, bu yaxınlarda göbələklərin məqsədyönlü davranışın başlanğıcına çox oxşar bir şeyə sahib olduğu göstərilib. 2024-cü ilin noyabr ayında IFL Science “Göbələklər formaları atır, beyinsiz orqanizmlərdə ibtidai zəka haqqında suallar qaldırır” başlıqlı məqalə dərc edib. Bu, Tohoku Universiteti və Naqaoka Kollecinin yapon alimlərinin apardığı təcrübə haqqında məlumat verib. Orijinal nəticələr Fungal Ecology elmi jurnalında dərc olunub. Bu nəticələr göstərir ki, ağac çürüyən Phanerochaete velutina göbələyinin misel şəbəkəsi ətraf mühit haqqında məlumatı şəbəkə boyu ötürməyə və “qidalandırıcının” yerindən asılı olaraq müvafiq olaraq böyümə istiqamətini dəyişməyə qadirdir.

Üstəlik, Marksın uyğunlaşdırdığı Hegel dialektikasına əsaslanaraq, sintezin yeni səviyyəsini – insan və maşın gözləməliyik. Və beynə implantasiya edilmiş silikon çiplərdən danışmırıq (bu texnologiya artıq az-çox adi hala çevrilir). Nüfuzlu elmi jurnal Cell-in 2025-ci il may sayında Genomik Tənzimləmə Mərkəzinin (CRG, Barselona) bir qrup aliminin ”Hematopoezdə hüceyrə dövlətinə xüsusi gücləndiricilərin dizayn prinsipləri” adlı məqaləsi dərc edilib. Əsərin ilk müəllifi Robert Froemel izah edir ki, bunu yalnız kompüterlər üçün deyil, canlı hüceyrələr üçün də proqram kodunun yazılması ilə müqayisə etmək olar. ”Bu, hüceyrə nəzarətində inanılmaz dəqiqlik verir”, Froemel vurğulayır. Ancaq daha inanılmazı odur ki, canlı məməli hüceyrəsindəki genlərin fəaliyyətini idarə edə bilən nəzarət sintetik molekulu (gücləndirici - DNT-nin qısa bir hissəsi) süni intellekt tərəfindən hazırlanıb. Müstəqil olaraq, ”sıfırdan” hazırlanmışdır, onları istədiyiniz hüceyrə növü üçün fərdiləşdirir. Bu o deməkdir ki, gələcəkdə biz birbaşa sifariş əsasında istənilən davranışa malik sintetik genləri yarada biləcəyik - sanki hüceyrə üçün onun ana dilində təlimatlar yazırıq.



## İnsan bir cihazdır...

Kibernetik maşınlar, yəni süni intellekt, “əsasən insan beyninin insan əli ilə yaradılmış orqanları” özləri “insan iradəsinin orqanlarına çevrilmiş təbii material” yaradırlar (bizim nümunəmizdə DNT-nin sintetik bölmələri). Və bu sintetik gücləndiricilər hüceyrə mübadiləsi vasitəsilə canlı məməli hüceyrəsinin (bu halda siçan) davranışını genetik səviyyədə idarə edir. Genetik cəhətdən dəyişdirilmiş mikroorqanizmlərin laboratoriyalardan və eksperimental obyektlərdən kənara potensial sızması; sintetik orqanizmlər və təbii növlər arasında qarşılıqlı təsir nəticəsində ekosistemlər üçün gözlənilməz nəticələrin mümkünlüyü; canlıların sintezi texnologiyalarının işlənib hazırlanmasının və irsiyyətin əsas mexanizmlərinin manipulyasiyasının etik aspektləri... Və bunlar sintetik biologiya üsullarının işlənib hazırlanmasının yalnız ən sadələövh, aşkar potensial nəticələridir.

Yenə də mənasızdır, amma demək lazımdır ki, canlıların sintezi və irsiyyətlə manipulyasiya texnologiyalarının inkişafı bütün maraqlı tərəflərin - elmin, cəmiyyətin, biznesin və dövlətin maraqlarını nəzərə alan kompleks yanaşma tələb edir. Bu istiqamətdə müəyyən addımlar nisbətən uzun müddətdir ki, atılır.

İnsanlar özlərini yaratdıqları süni intellektdən qorunmağa çalışmaqda daha az aktiv deyillər. Süni intellekt sistemlərinin təhlükəsizliyi sahəsində beynəlxalq müqavilələr və qaydalar müxtəlif səviyyəli tənzimləmələri əhatə edir - qlobal təşəbbüslərdən tutmuş regional və milli sənədlərə qədər. Əsas istiqamətlər etika, şəffaflıq, məsuliyyət və istifadəçilərin hüquqlarının müdafiəsinə aiddir. Burada süni intellekt sistemlərinin təhlükəsizliyini təmin etməyə yönəlmiş əsas beynəlxalq təşkilatlar, təşəbbüslər və sənədlərdən yalnız bir neçəsi var.

Ümumiyyətlə, bio- və kibertəhlükəsizlik mövzusunda sakit ola bilərsiniz. Axı ən azı bir çox mütəxəssis və təşkilatlar bu haqda danışır, yazırlar, düşünürlər. Hansı ki, onsuz da pis deyil. Amma görünən odur ki, Homo sapiens sivilizasiyası keyfiyyətcə fərqli “faza” vəziyyətinə - biotexnologiyanın və süni intellekt texnologiyalarının birləşməsinə, interdiffuziyasına keçid həddinə çatıb.

## Ən son nümunə

Massaçusets Texnologiya İnstitutunun Kompüter Elmləri və Süni İntellekt Laboratoriyasının (CSAIL) tədqiqatçıları beyindəki sinir salınımlarından ilhamlanaraq yeni süni intellekt modeli hazırlayıblar. ”Məqsədimiz bioloji sinir sistemlərində müşahidə olunan sabitlik və səmərəliliyi əldə etmək və bu prinsipləri maşın öyrənmə çərçivəsinə çevirmək idi. LinOSS xətti salınan dövlət-kosmos modelləri ilə, hətta yüz minlərlə məlumat nöqtəsini və ya daha çoxunu əhatə edən ardıcıllıqla uzunmüddətli qarşılıqlı əlaqəni öyrənə bilərik”, - bu məqalənin müəlliflərindən biri izah edir.

Test göstərib ki, LinOSS müxtəlif mürəkkəb ardıcıllığın təsnifatı və proqnozlaşdırma tapşırıqlarında mövcud ən müasir modelləri əhəmiyyətli dərəcədə üstələyir. Xüsusilə, çox uzun məlumat ardıcıllığı ilə bağlı tapşırıqlarda geniş istifadə olunan Mamba modelini demək olar ki, iki dəfə üstələyib. Maraqlıdır ki, tərtibatçılar LinOSS-in insan beyninin necə işlədiyini daha dərindən başa düşməklə bağlı nevrologiyaya dəyərli fikirlər verə biləcəyini təklif edirlər. Yəni, potensial olaraq, bioloji neyron şəbəkələri haqqında anlayışımızı dərinləşdirmək üçün süni neyron şəbəkələri yaratmaqdan danışırıq...

**V.VƏLİYEV**

*P.S. Məqalədə xarici mənbələrə istinadlar var.*



Mətanət Məmmədova

# Səhv düşəndə yerimiz...

***Bəzən yerimizin səhv düşməsi üçün həyatı günahkar hesab edirik. Hər dəfə bununla qarşılaşanda, “ey həyat, sən nə qəribəsən”,- deyib keçirik. Təəssüfümüzü həyata yükləyirik. Lakin əslində bu məsələdə həyatın nə günahı? Həyat zamanın bir kəsiyidir. Bu kəsik bizimlə sıx əlaqədə olsa da, lakin o, sakitcə öz axarındadır. Həyatda nə baş verirsə, insanlarla bağlıdır. Elə çox vaxt yerlərimizin səhv düşməsinin də həyatla əlaqəsi yoxdur, birbaşa insanların tamahından, bir-birinə yarınmaq meylindən, yaxşını görməməsindən, pisi kimlərinsə xahişi əsasında irəliyə çəkməsindən irəli gəlir.***

Beləliklə, səhv düşəndə yerimiz, əziyyət çəkirik, könlümüz qırılır, qəlbimiz sınır. Əziyyətimiz yerə çırpılır, cilik-cilik olur. Gecə-gündüz yuxusuz qalıb kitablardan aldığımız bilik üzümüzə şillə kimi vurulur. Bacarığımız, qabiliyyətimiz, istedadımız bunların hər biri bizdən zəif olanların yanında alçaldılır.

Məsələn, gənc universiteti bitirir, işə qəbul imtahanı verir. Baxmayaraq ki, yüksək bal toplayır, lakin dayısı olmadığı üçün qalır kənarda, dayısı olan isə irəlidə-onun yerində. Lakin o, qoyulduğu vəzifədə yerinə keçdiyi gəncin dövlətə, cəmiyyətə verəcəyin töhfəni verə bilmir. Dayısının kölgəsinə sığına-sığına həyatını yaşayır. Bəli, yerimiz belə səhv düşür. Bunu kim edir, insanlar.

Uzun illər bir idarə, müəssisə və ya təşkilatda çalışan işçinin zamanı çatanda bir qədər yuxarı vəzifəyə qalxması üçün imkan yarananda, bir də baxırıq ki, o təcrübəli, ziyalı insan qaldı bir tərəfdə, bu keyfiyyətlərdən uzaq digər bir işçi həmin vəzifəyə layiq görüldü. Nə üçün görüldü, çünki dayısı var, o, tapşırıb.

Beləliklə, nə baş verir? Yerlərimiz səhv düşür. Bacaranlar, bacarıqlılar geridə, bunlardan uzaq olanlar isə öndə. Bunu kim edir? Əlbəttə, insanlar.

Heç uzağa getməyək, bəzi qurumların jurnalistlər üçün keçirdiyi yazı müsabiqələrindən danışaq. Kim deyər ki, burada həmişə ədalət qalib gəlir? Bunu müşahidə edən varmı? Mənimlə razılaşarsınız ki, baxmayaraq ki, qaydaları hər dəfə gözümüzün içinə soxurlar ki, yox, əsla burada yanlış ola bilməz, lakin bu qaydalarda bir qaydasızlıq var, bilən, bilir. Bir də görürük ki, bu müsabiqələrdə yerlərimiz nə yaman səhv düşüb... Ən yaxşı yazılar, ən sanballı jurnalistlərin yazıları axırdadır. Burada necə, dayı məsələsi yoxdur? Bəlkə dayı məsələsinin bir başqa variantı da bizim sahədə həyata keçirilir?

Hər nə isə, bunu həyat etmir ki, dili olan insan edir. Deyir ki, məsələn, birinci yeri verək filankəsə ki, acıqlanıb sabah qüsurlarımızı açıb ölkə ilə bir etməsin. İkinci yeri verək filankəsə ki, sazişimiz var axı, bizdən yaxşı şeylər yazsın. Üçüncü yeri verək filankəsə ki, onu illərdir, ancaq susdurmuşuq.

Beləliklə, nə baş verir? Yaxşı jurnalistlərin yazıları kənarda qalır. Səsini çıxaranda isə deyirlər ki, bəs inanın Allaha, Tanrıya, göydəki gözəgörünməzə ki, bizim xəbərimiz yoxdur, bunları ekspertlər imzasız oxuyub. Amma son qərarı ekspertlərin özləri belə verə bilmir axı. Beləliklə də yerlərimiz səhv düşür. Daha doğrusu səhv salınır.

Bu “dayı”, “tapşırıq” məsələsi nədirsə, bizim cəmiyyətimizi qurd kimi basıb. Hara çönürsən dayı, hara gedirsən, dayının tapşırığı, yarınanlar... Nə vaxtadək, harayadək? Buna bir son qoyulmalıdır, ya yox?.. Cavab maraqlı olar!

# Zorakılığın onlayn yolu: ehtiyatlı olun!

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*





***Əvvəllər, hələ internet həyatımıza bu qədər pərçimlənməmişdən öncə də zorakılıq demə bir anlayış vardı, döyülən, söyüklən, təhqir edilən, öldürülənlər vardı. İnternetlə zorakılıq anlayışı fərqli bir don da tikdirdi özünə, mədəni, elit bir don. İndi zorakılıq online sistemlə tətbiq olunur.***











Ümumiyyətlə, biz uzun zamandır ki, zorakılıq hallarını az qala hər gün televiziyanın xəbər proqramlarında görürük. Üstəlik tək xəbər proqramlarında deyil, bir çox tv proqramlarında ən reytinqli mövzulardan biri məhz zorakılıqdır. Daim zorakılıq görüntülərinin, söhbətlərinin fonunda yaşayan insan üçün getdikcə bu vəziyyət normallaşır, adiləşir.

İndi sosial şəbəkələrdə zorakılıq mövzusu ən aktual və həssas problemlərdən birinə çevrilib.Ən çox rastlaşdığımız növü də kiberbullinqdir. Kiberbullinq internet, sosial şəbəkə, mobil tətbiqlər və digər rəqəmsal platformalar vasitəsilə bir şəxsi təhqir etmək, alçaltmaq, hədələmək yolları ilə zorakılığa məruz qoymaq deməkdir. Bu zorakılıq forması ən çox yeniyetmələr və gənclər arasında yayılmış olsa da, böyüklər də məruz qala və qoya bilir.

Kiberbullinqin ən çox müşahidə edilən formaları təhqiredici və alçaldıcı mesajlar yazmaq, başqasının şəklini və ya videosunu izinsiz paylaşmaq, saxta hesablarla birinə qarşı nifrət hissi formalaşdırmaq, şəxsi məlumatları ifşa etmək, sosial şəbəkələrdə birini qəsdən lağa qoymaq və ya tənqid etmək, məhrəmiyyətinə toxunmaq və s.dir. Kiberbullinq çox təhlükəli zorakılqı növüdür, o psixoloji zərbə vyra, stress, qorxu, özünə inam hissinin itkisisini formalaşdıra bilər. Həmçinin kiberzorakılığa məruz qalan insan sosial təcridə qapana, dostlarından və ailəsindən uzaqlaşa bilər. Kiberbullinq onun təhsil və iş fəaliyyətinə mənfi təsir göstərə, buna görə maddi zərər də görə bilər. Uzunmüddətli travmalar və depressiya isə kiberbullinqə məruz qalan bir çox adamın problemi olur.

Bu gün sosial şəbəkələrdə həm də zorakılıq ehtiva edən görüntülərin paylaşılması çox yayılıb. Fiziki zorakılıq, qəza, müharibə, intihar, cinsi zorakılığı özündə cəmləyən görüntülərin yayılması həmin görüntüdə olan insanlara, hamelə sosial şəbəkə istifadəçilərinə qarşı zorakılıqdır. Bu cür görüntülər emosional olaraq sarsıdıcı təsir bağışlaya, insan səhhətinə problem yarada bilər. Xüsusilə qəza, faciə kimi anların videolarına yayımlanma qadağası qoyulmalıdır, müharibə, terror görüntülərinin göstərilməsinə icazə verilməməlidir. Cinsi zorakılıq, intihar və ya cəhdlərinin yayımlanması da insanların zorakılığa məruz qoyulması deməkdir.

Bu görüntülərin xüsusilə gənclər və uşaqlar üçün zərərli olduğunu anlamaq niyə bu qədər çətindir? Üstəlik, hər gün zorakılıq, intihar, qətl kimi görüntülərlə qarşılaşdıqca zorakılığa qarşı hissin də normallaşması prosesi gedir. Beləcə biz bu görüntülərə alışaraq empatiya hissimizi itiririk. Həmçinin, kadrlardakı insanların razılığı olmadan görüntülərinin yayılması həm etik, həm də hüquqi cəhətdən yanlışdır. Ona görə də bir çox ölkədə zorakılıq ehtiva edən, travma yarada biləcəyui ehtimal edilən görüntülərin paylaşılması cinayətdir və lazımınca cəzalandırılır. Həmçinin sosial şəbəkə platformaları bu tip görüntüləri silmək və paylaşan hesabları bloklamaq səlahiyyətinə malikdir.

Sosial şəbəkələrdə zorakılıq göstərməyin bir növü də nifrət ehtiva edən statuslar, vvideo paylaşımlardır. Bir şəxsi və ya bir sosial qrupu irqinə, dininə, cinsiyyətinə, milliyyətinə, dilinə, seksual orientasiyasına, fiziki xüsusiyyətinə və ya sosial statusuna görə alçaldan, təhqir edən və zorakılığa təşviq edən ifadələr, çıxışlar da zorakılıqdır. Bu cür ifadələr həm real həyatda, həm də sosial şəbəkələrdə baş verə bilər və ciddi sosial, hüquqi və psixoloji nəticələr doğura bilər.

Təqlid və manipulyasiya vasitəsi ilə də sosial şəbəkələrdə insanları aldatmaq, səhv yönləndirmək və ya ictimai rəyə təsir göstərmək mümkündür və bizim ölkədə bu hallar çox olur. Xüsusilə sosial şəbəkə fenomenləri yalan, saxta və ya təhrif olunmuş məlumatları paylaşaraq reklam etdikləri məhsulu təqdim edirlər. Bu proses xüsusilə vizual kontent -foto və video, manipulyativ paylaşımlar vasitəsilə həyata keçirilir.

Bir çox hallarda sadə vətəndaşlar da sosial şəbəkələrdə başqalarına zorakılıq göstərə bilirlər. Başqasının adından və ya şəklindən istifadə edərək saxta profil açaraq onun məhrəm fotolarını paylaşanlar, şəxsi telefon nömrəsini yazanlar, haqqında böhtan paylaşanlar da kifayət qədər çoxdur və bir çox hallarda onlar cəzasız qalırlar. Müşahidə edtdiyimiz vəziyyətlərin çoxunda keçmiş sevgilidən, ərdən, borclu qalmaış tanışdan qisas alma halları da bu üsulla baş verir.

Sosial şəbəkələrdə paylaşım edərkən, “bəyəndim” edərkən diqqət edin ki, dezinformasiya, şərəf və ləyaqəti alçaldan məlumatlar olmasın. Şou, sensasiya yaradan məlumatların səhihliyinə diqqət edin. Paylaşım, kontent yaradarkən etik və məsuliyyətli davranmaq, başqalarını təhqir etməmək, zorakılıq göstərməmək sosial şəbəkə istifadəçilərinin borcudur.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
14 iyun
2025-ci il

# “İşsizlik gənclərin gələcəyə olan ümidlərini sarsıdır”



*“İşsizlik hər yaş qrupunda fərdlərə mənfi təsir göstərsə də, gənclər üçün bu vəziyyətin psixoloji nəticələri daha dərin və çoxşaxəli ola bilər". Bu sözləri SİA-ya açıqlamasında psixoloq, Brainspotting terapisti Pərvanə Musayeva deyib. O bildirib ki, çünki gənclik dövrü həm peşəkar kimliyin formalaşdığı, həm də müstəqillik yolunda addımların atıldığı bir dövrdür: "İşsiz qalmaq gənclərin psixoloji sağlamlığını, sosial münasibətlərini və gələcəyə dair ümidlərini sarsıda bilər.*



## PSİXOLOQ İZAH ETDİ

İşsizlik gənc insanlar üçün yalnız maddi deyil, eyni zamanda psixoloji baxımdan da ciddi bir sınaqdır. Bu durum gənclərdə depressiya, ümidsizlik, narahatlıq və digər psixoloji çətinliklərin yaranmasına və ya dərinləşməsinə səbəb ola bilər. Bu təsirlərin şiddəti şəxsin şəxsiyyətindən, sosial dəstəyindən və ailə mühitindən də asılıdır.

Mümkün təsirlərə aşağıdakılar daxildir:

### Depressiya və ümidsizlik

Davamlı iş axtarışı və rədd edilmə halları gəncin özünə inamını sarsıda bilər. Gələcəyə dair ümidlərin azalması, özünü dəyərsiz hiss etmək və mənasızlıq duyğuları yaranar. İşsizlik uzandıqca depressiv əlamətlər güclənə bilər.

### Anksiyete (narahatlıq)

Maddi çətinliklər və gələcəklə bağlı qeyri-müəyyənlik gənclərdə güclü narahatlıq doğura bilər. “Nə vaxt iş tapacağam?”, “Nə olacaq?” kimi düşüncələr yuxu pozuntuları, gərginlik və panik əlamətləri yarada bilər.

### Özünə inamın zəifləməsi

İşsiz qalmaq gəncin öz bacarıqlarını dəyərləndirməsinə mənfi təsir edə bilər. “Məndəmi bir problem var?” tipli suallar daxili tənqidi gücləndirə bilər. Bunun nəticəsində insanlarda özgüvən əskikliyi yaranır.

### Sosial təcrid

İşsiz qaldıqca gənc özünü dostlarından və cəmiyyətdən uzaqlaşdıra bilər.Sosial dəstəyin azalması isə depressiya riskini daha da artırır.

### Bu hallarda nələr tövsiyə edirik?

Psixoloji dəstək axtarmaq: fərdi və ya qrup terapiyası gəncə bu dövrü daha sağlam keçməyə kömək edə bilər.

Sosial dəstəyi gücləndirmək: dostlar və ailə ilə münasibətləri aktiv saxlamaq.

Yeni bacarıqlar qazanmaq: iş tapana qədər könüllü fəaliyyətlər, kurslar və ya təlimlərdə iştirak etmək həm motivasiyanı artırar, həm də CV-ni zənginləşdirər”.

*Söylü Ağazadə*

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# "Son zəng" günü 37 dərəcə isti olacaq

***Bakıda və Abşeron yarımadasında iyunun 14-də hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, şimal-şərq küləyi axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 20-22º isti, gündüz 29-34º isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 756 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75 %, gündüz 50-55 % olacaq.***



Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüzdən bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi bir sıra ərazilərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-22° isti, gündüz 32-37° isti, dağlarda gecə 9-14° isti, gündüz 17-22° isti olacaq.

# Yardımlıda traktor aşıb, sürücü hadisə yerində ölüb

Yardımlı rayonunda ölümlə nəticələnən yol nəqliyyat hadisəsi baş verib. Belə ki, Yardımlı rayon Urakəran kəndində yaşayan Qəliyev Yaqub Rafiq oğlu idarə etdiyi “Belarus” markalı, 65-T-211 dövlət qeydiyyat nişanlı traktoru qoşqu ilə birlikdə aşırıb. Nəticədə aldığı xəsarətlərdən hadisə yerində ölüb. Faktla bağlı Yardımlı rayon prokurorluğunda araşdırma aparılır.



Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000